www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 noyabr 2025-ci il Cümə № 203 (8813) Qiyməti 60 qəpik

Xəbər

## Mehdiyev müxalifəti niyə və necə ələ alıb?

yazısı səh.3-də

Gündəm

### Bakıya "Kreml saatı ilə işləyin" israrı




Rusiya 3+3 formatını anti-ABŞ formatına çevirmək istəyir

yazısı səh.8-də

### Bakı meri o məmuru işdən çıxardı

yazısı səh.3-də

### Mişustinin müavini Biləcəridən gedən qatara görə sevindi

yazısı səh.4-də

### Hərbi parada hazırlıq yekunlaşdı

yazısı səh.5-də

### Tehran "Tramp yolu"na qarşı?

yazısı səh.7-də

### Qərar verdilər: "haylar ölkəsi..." kimi qalırlar

yazısı səh.9-da

### Ölkədə "Məşədi İbad" təhlükəsi

yazısı səh.10-da

### Araikin cinayətləri təsdiqləndi

yazısı səh.11-də

### Alimlərə çətin ev tapşırığı

yazısı səh.10-da

### "Tərtər işi": general Orucov həbsdə qaldı

yazısı səh.11-də

### Azərbaycana "SSRİ müharibəsindən" serial çəkmək təklifi

yazısı səh.15-də

### Əcnəbilərin rayonlardan "ayağını kəsən" səbəb

yazısı səh.13-də

### Özəlləşdirmə "çek"ləri yenə gündəmdə

yazısı səh.14-də

# MOSKVA MDB ÖLKƏLƏRİNİ QƏRBLƏ QORXUDUR

Rusiya bu platformada iclasları ən müxtəlif səviyyələrdə intensivləşdirib; postsovet məkanına əsl təhdid haradandır?



yazısı səh.4-də

# NATO-nun Azərbaycanda döyüş hazırlığı

Bakı alyansın 33-cü üzvü olarmı, yoxsa prioritet "Turan ordusu"dur? - hərbi analitikin rəyi

yazısı səh.5-də



Tom Barak

### ABŞ-nin Ankara səfirindən mühüm Azərbaycan mesajı

yazısı səh.7-də



*Etibar Məmmədov:*

### "Bu, açıq müxalifətdən daha təhlükəlidir"

yazısı səh.3-də



### Vardanyanın xilas üçün sərhəd hiyləsi

yazısı səh.6-da

# Amnìstìya olacaqmı?



Hazırda ölkədə amnistiya ilə bağlı hazırlıq yoxdur.

Bunu "Report"a açıqlamasında "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri, Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev deyib.

O, bu məsələ ilə bağlı müxtəliflər təkliflərin səsləndirildiyini vurğulayıb: "Bu il konstitusiyanın 30-cu, Vətən müharibəsindəki zəfərimizin isə beşinci ildönümüdür. Amnistiyanın qəbul edilməsi Milli Məclisə aid məsələdir. Ümumiyyətlə, amnistiya haqqında qərar dörd-beş illik fasilələrlə qəbul olunur. Sonuncu amnistiya qərarı 2021-ci ildə qəbul edilib. Növbəti amnistiya qərarının qəbulu üçün zəruri şərtlər də var. Bununla belə, müvafiq qərarın nə vaxt qəbul ediləcəyi məlum deyil".

Fond rəhbəri indiyə qədər Ümummilli lider Heydər Əliyev tərəfindən 33, Prezident İlham Əliyev tərəfindən isə 37 əfv sərəncamının imzalandığını, o sənədlərin 10 mindən çox məhkuma şamil edildiyini xatırladıb:

"Sonuncu əfv sərəncamı bu il imzalanıb. Hazırda Əfv Komissiyasının Katibliyi fasiləsiz işləyir, müvafiq məlumatlar toplanır".



## Azərbaycan Ordusu NATO standartlarına uyğunlaşdırılır

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

Dövlət başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğulayıb. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxunub.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirib.



## Türkiyə "F-16-lar"ı Bakıya gəlir

**Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 6 ədəd "F-16" Bakıda noyabrın 8-də baş tutacaq hərbi paradda uçuş edəcək. "Unikal" xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə müşaviri Zeki Aktürk mətbuat konfransında deyib. Bakıda Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradla bağlı məşqlər yekunlaşıb. Noyabrın 8-də Bakıda keçiriləcək paradda Türkiyə və Pakistan hərbçiləri də iştirak edəcəklər. Artıq hər iki ölkənin hərbçiləri Azərbaycana gəlib.**

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın baş naziri Şahbaz Şərif paradda iştirak etmək üçün Azərbaycana səfər edəcəklər.



## "44" filminin çəkilişləri başa çatıb

**Vətən müharibəsindən bəhs edən "44" bədii filminin çəkilişləri bu gün uğurla başa çatıb.**

"Cebheinfo.az" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov özünün sosial media hesabında paylaşım edib.

O bildirib ki, filmin çəkilişləri 4 il ərzində həyata keçirilib: "Qarşıdakı post-prodakşn mərhələsində bizi hələ ciddi və məsuliyyətli işlər gözləyir. Filmin ərsəyə gəlməsində əməyi olan fədakar komanda üzvlərimə, peşəkar aktyorlara və bu işə ürəkdən yanaşan hər kəsə dərin təşəkkürümü bildirirəm. Bu cür istedadlı heyətlə çalışmaq həm böyük zövq, həm də dəyərli bir təcrübə oldu".

## Kəramət "Qarabağ"a görə bunu etdi

**Tanınmış yazıçı Kəramət Böyükçöl UEFA Çempionlar Liqasının Liqa mərhələsinin 4-cü turunda Bakıda "Qarabağ" FK-nın "Çelsi" ilə 2:2 hesablı heç-heçə nəticəsi münasibətlə 136 nəfərə kitab hədiyyə edib.**

O, bu barədə sosial media hesabında paylaşım edib: "Söz vermişdim ki, "Qarabağ" FK-nın "Çelsi" üzərində qələbəyə bərabər heç-heçəsi münasibətilə 100 tələbəyə kitab hədiyyə edəcəyəm. Amma 136 nəfərə hədiyyə etdim. Təki oxuyun. İnanıram ki, oxuyacaq və bir nəticə çıxaracaqsınız. Uğurlar, "Qarabağ" FK!", - deyə qeyd edib.



## Deputatların maaş artımı təklifinə nazirdən reaksiya

**"Azərbaycanın nüfuzu artır, beynəlxalq mövqeyi güclənir, diplomatik nümayəndəliklərin də sayı artır. Buna görə bu sahəyə vəsait ayrılması da vacibdir".**

"Yeni Sabah" xəbər verir ki, bunu maliyyə naziri Sahil Babayev Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında büdcə müzakirəsi zamanı deyib.

Nazir deputatlar tərəfindən səsləndirilən diplomatların maaşının artırılması təkliflərini cavabsız qoymayıb: "Diplomatların əməkhaqqının artırılması təklifinə gəlincə, bu, ötən il artıb. Onların əməkhaqqı BMT-nin müəyyən etdiyi mexanizm əsasında həyata keçirilir".

## Gələn il pensiyalara bu qədər vəsait ayrılacaq



**Gələn il pensiyalara 7 milyard 993 milyon manat, müavinət, təqaüd, kompensasiyalara 2 milyard 144 milyon manat ayrılması nəzərdə tutulur.**

Bakupost.az xəbər verir ki, növbəti ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müavinət, təqaüd və kompensasiyaların ödənilməsi üçün 178,5 milyon manat və ya 9,1% çox olmaqla 2 milyard 144 milyon manat nəzərdə tutulur.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Milli Məclisin Əmək və sosial siyasət, Səhiyyə, Təbii ehtiyatlar, energetika və ekologiya, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında bildirib.

O qeyd edib ki, həmçinin 2026-cı il üzrə pensiyaların maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9% artımla nəzərdə tutulub.

"Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il üzrə ümumi xərclərinin 8 milyard 483 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bunun da 96,6% və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2024-cü illə müqayisədə 1 milyard 534 milyon manat, 2025-ci illə müqayisədə isə 788 milyon manat çoxdur", - nazir bildirib.



## Bakının mərkəzində qətl

**Bakının mərkəzində qətlə yetirilən Yasin İbadov 19 yaşında olub. Məlumata görə, hadisə noyabrın 5-i saat 01 radələrində Bəşir Səfəroğlu küçəsində qeydə alınıb. Hadisəni törətməkdə şübhəli bilinən mərhumun 1987-ci il təvəllüdlü əmisi Babək İbadov tutulub.**

Onun əvvəllər məhkum edildiyi və qətli öncədən planlaşdırdığı məlum olub. Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda araşdırma aparılır.



## Ekologiya Nazirliyinin büdcəsi azaldıldı

**"Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanında dəyişiklik edilib.**

Modern.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin büdcədəki xərcləri 1 384 537 manatdan 563 681 manata endirilib, əvəzində Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Mərkəzinin büdcədəki əsas xərcləri 820 856 manat müəyyən edilib.

Bundan başqa, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin büdcədəki xərcləri 16 850 726 manatdan 16 568 470 manata endirilib, Balıqçılıq və Akvakultura Mərkəzinin büdcədəki əlavə xərcləri 282 256 manat müəyyən olunub.



## Kadi iki ay oynaya bilməyəcək

**"Çelsi" ilə oyunda zədələnən "Qarabağ"ın yarımmüdafiəçisi Kadi Borgesin durumuna aydınlıq gəlib.**

Klubun mətbuat xidməti xəbər verir ki, yarımmüdafiəçi oyundan dərhal sonra "Liv Bona Dea Hospital"da müayinədən keçib. Müayinənin nəticələrinə əsasən, futbolçunun sol fibulasında sınıq aşkarlanıb.

Həkimlərin ilkin proqnozuna görə, 20 nömrəli formanı tərlədən futbolçunun müalicə və bərpa prosesi təxminən 8-10 həftə davam edəcək.

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025

# Mehdiyev müxalifəti niyə və necə ələ alıb?

## Gültəkin Hacıbəyliyə ev, Əli Kərimliyə mandat...

**Dövlətə xəyanət və hakimiyyətin zorla ələ keçirilməsinə cəhd ittihamları ilə ev dustaqlığına məhkum edilən Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin dövlət çevrilişindən sonra 50 nəfərlik "Dövlət Şurası" yaratmaq istəyi hələ də müzakirə olunur. Xüsusilə də R.Mehdiyevin "Dövlət Şurası"nda görmək istədiyi 50 nəfərin kimliyi açıqlanmayıb. Agentliklərdən biri isə 50 nəfərin siyahısında AXCP sədri Əli Kərimli və sabiq deputat, Milli Şuranın üzvü Gültəkin Hacıbəylinin adının olduğunu iddia edib.**

Oxu24.az saytının səhih mənbələrinə istinadla yazdığına görə, Gültəkin Hacıbəyli ilə Ramiz Mehdiyevin əlaqələri uzun illər əvvələ gedib çıxır. Belə ki, G.Hacıbəylinin deputat seçilməsində R.Mehdiyevin də xeyir-duası olub. Bu əlaqələr G.Hacıbəyli deputat olduqdan sonra da dərinləşib. Qeyd edilib ki, Ramiz Mehdiyevin birbaşa sahibi olduğu binalarda Gültəkin Hacıbəyliyə iki ev hədiyyə edilib. Sayt həmin mənzillərin ünvanı və sənədləri barədə dəqiq məlumatlar dərc edib. Söhbət Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 251 A ünvanında yerləşən çoxmərtəbəli yaşayış kompleksindən gedir. Bildirilir ki, Mehdiyev Gültəkin Hacıbəylini "mükafatlandırmaq" məqsədilə bina tikilən ərəfədə, 2005-ci ildə ona iki mənzil hədiyyə edib. Bina istismara verilən tarixdən Hacıbəyli orada yaşasa da, evin sənədləşməsi və çıxarışların alınması 2008-ci ilə təsadüf edir. Həmin mənzillərdən biri Gültəkin Hacıbəylinin atası Yunis Hacıyevin adınadır. Söhbət həmin ünvanda yerləşən 179.4 kv.m sahəsi olan 183 nömrəli mənzildən gedir. Əldə edilən məlumata görə, G.Hacıbəyli sözügedən mənzili hazırda yüksək məbləğə kirayə verib. Eyni binanın 13-cü mərtəbəsində G.Hacıbəyliyə "xüsusi xidmətlərinə" görə, "boz kardinal" tərəfindən daha bir mənzil bağışlanıb. Bu mənzil isə Hacıbəylinin bacısı Aytən Hacıyevanın adına rəsmiləşdirilib. 178.18 kv.m sahəsi olan 4 otaqlı mənzildə G.Hacıbəyli özü tək yaşayır", - məlumatda vurğulanıb. Gültəkin Hacıbəyli II və III çağırış (2000-2010-cu illərdə) deputat olub. Mənzillərin də ona deputat olduğu zaman verildiyi iddia olunur.

Bəs R.Mehdiyev müxalifəti niyə və daha çox hansı yollarla ələ alıb, onlardan öz məqsədləri üçün niyə istifadə edib? Yeri gəlmişkən, AMİP-in fəxri lideri Etibar Məmmədov partiyaları ləğv etmək, onları maliyyə cəhətdən çökdürmək və onun rəhbərləri və sıravi üzvlərini inzibati cəhətdən təqib etməyin məhz Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin metodu olduğunu deyib...



**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli "Yeni Müsavat"a bildirdi ki, hakimiyyətdə kifayət qədər səlahiyyətlərə malik Ramiz Mehdiyevin dövlətin məhv edilməsinə çalışması heyrət doğurur:** "Bunun üçün ölkə daxilində bütün qruplara və strukturlara nüfuz edib, onları özünün yaratdığı şəbəkəyə qoşub. Bütün fəaliyyəti xalqı dövlətdən narazı salmağa, dövləti xalqın gözündə kiçiltməyə, etibarsızlaşdırmağa yönəlib.

Nəhayət ki, bu əməlləri törədən və prosesi idarə edən Ramiz Mehdiyev ifşa olundu. Dövlət vəzifələrində çalışanlar, bank-maliyyə sektorunun əməkdaşları, nazirlər, deputatlar, komitə sədrləri, icra başçılarının Ramiz Mehdiyevin komandasında yer aldığı barədə məlumatlar yayılmaqdadır. Bu siyahıda müxalifət partiya rəhbərlərinin də yer alması haqqında informasiyalar isə insanı dəhşətə gətirir. Bu məlumatların doğru olmamasını çox istərdim. Lakin hazırda davam edən istintaqın bütün həqiqətləri üzə çıxaracağına inanıram.

Xüsusilə Milli Şuranın rəhbərlərindən biri Gültəkin Hacıbəyli və AXCP Əli Kərimli ilə bağlı deyilən arqumentlərə və iddialara aydınlıq gətirilməsinə ehtiyac vardır. Hakimiyyətə barışmaz mövqedə dayanan bir şəxsə iki evin bağışlanmasını heç bir normal məntiqə sığışdırmaq olmur. Ötən illərdə siyasi müstəvidə baş verən və bizdə müəyyən suallar doğuran hadisələrin üstünə indi işıq düşməyə başlayır. Müxalifətin keçirdiyi aksiyalarla bağlı qərarın verilməsi, mitinqlərin yürüşlərə çevrilməsi, müstəqil düşüncəli şəxslərin həbsi və s. nüanslar hər zaman ciddi müzakirə predmeti olmuşdur. Eyni zamanda müxalifətdən seçilən deputatların yalnız müəyyən qrupa mənsub olmasının bir mənası olduğu da görünməkdədir".

**ƏHD Partiyasının baş katibi Niyaməddin Orduxanlı isə bildirdi ki, bunu ancaq istintaq orqanı müəyyənləşdirməlidir:** "Biz indidən deyə bilmərik ki, kim nə edib və ya nə etməyib. Ehtimallar əsasında kimlərisə ağır dövləti cinayətdə ittiham etmək olmaz və yaxud da ehtimallar əsasında fikir söyləmək doğru olmaz. O baxımdan ki, hələlik bu həbsləri həyata keçirən istintaq orqanı tərəfindən ictimaiyyətə rəsmi məlumat verilməyib. Biz ancaq mətbuata sızdırılan müəyyən məlumatları əldə edirik. Mətbuatın yazdıqlarının istintaq orqanı tərəfindən təkzib olunmaması, əlbəttə, hamıda təqribən nə baş verməsi barədə bir fikir formalaşdırır. Amma qəti fikir söyləmək üçün biz rəsmi açıqlamaları gözləməliyik. Nə baş verib, kimlərin bu işdə əli var? Yəni mülahizələr əsasında kimlərisə ağır cinayətlərdə ittiham etmək doğru olmaz. O ki qaldı Əli Kərimliyə, bu adam həmişə həm daxildən, həm də xaricdən sifariş alıb. Əli Kərimlinin bütün siyasi fəaliyyəti sifarişlərin icrası ilə əlaqəli olub. Əli Kərimli pulun qarşılığında istənilən addımı atmağa hazır olan birisidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# "Bu, açıq müxalifətdən daha təhlükəlidir"

## Etibar Məmmədov: "Müxalifətin ləğv edilməsi haqda fikir səsləndirənlər uzaqgörən deyillər"

**Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin ev dustağı edilməsindən sonra siyasi partiyaların qadağan olunması da müzakirə olunur.**

Mövzu ilə bağlı Azərbaycan Milli İstiqlal Partiyasının fəxri lideri Etibar Məmmədov Moderator.az-a verdiyi açıqlamada Azərbaycanda müxalifət partiyalarının ləğv edilməsinin doğru olmadığını vurğulayıb. Onun sözlərinə görə, müxalifətin fəaliyyəti çətinləşdikdə, "gizli müxalifət" ortaya çıxır ki, bu da hakimiyyət üçün daha təhlükəlidir.

"Hər hansı bir ölkədə açıq müxalifət olmayanda həmişə gizli müxalifət meydana çıxır. Və əslində siyasi partiyaları ləğv eləmək də çətin bir iş deyil. İstəsələr, qanun qəbul edib partiyaların hamısını qadağan edə bilərlər. Ancaq bu o demək deyil ki, belə halda ölkədə müxalifət olmayacaq. Sadəcə olaraq, müxalifət açıq şəkildə yox, gizli formada yaranıb mövcudluğunu davam etdirəcək. Bu isə açıq müxalifətdən daha təhlükəlidir. Odur ki, müxalifətin, ümumiyyətlə, ləğv edilməsi haqda fikirlər irəli sürənlər siyasi baxımdan uzaqgörən deyillər".

AMİP lideri onu xüsusi olaraq nəzərə çatdırıb ki, partiyaları ləğv etmək, onları maliyyə cəhətdən çökdürmək və onun rəhbərləri və sıravi üzvlərini inzibati cəhətdən təqib etmək - məhz Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin metodu olub: "O, 30 ildən çox bu yolu seçdi və nəticəsi də göz qabağındadır. İstənilən partiyanın inzibati qaydada ləğv olunması o qədər xoşagələn və qanuni yol deyil. Partiyaların ləğvi təklifi ilə çıxış edənlər də elə düşünməsinlər ki, başqalarını qadağan etməklə özləri salamat qala bilərlər, əslində özləri də istənilən mərhələdə həmin siyasətin qurbanı ola bilərlər. Və hansısa partiyanın ləğvini təklif edənlərin özünün də qoltuqlarındakı bir qovludan və yaxın qohum-əqrəbadan başqa ətraflarında heç kəs yoxdur. Bir sözlə, indiki zəmanədə partiya ləğv etmək, partiya qadağan etmək düzgün yol deyil", - deyə siyasətçi vurğulayıb.

# Bakı meri o məmuru işdən çıxardı

**Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin rəisi Fəqan Məlikov vəzifəsindən azad olunub. Bu barədə departamentin sədri Rəfail Mehralıyev əmr imzalayıb.**

F.Məlikov işində yol verdiyi ciddi nöqsanlara görə vəzifəsindən azad edilib. Hələlik Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin rəisi vəzifəsinə yeni təyinat olmayıb. Bu vəzifənin icrası trestin baş mühəndisi Sabir Həsənova həvalə edilib. (mənbə: Yenisabah.az)

Qeyd edək ki, oktyabrın 30-da Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təsərrüfat subyektlərinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib. Müzakirə zamanı Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin işinə xüsusi diqqət yetirilib. Trestin rəhbərliyi daxili audit zamanı aşkar edilmiş nöqsanlara görə ciddi tənqid edilib.

Bakı meri Eldar Əzizov Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin rəisi Fəqan Məlikova ciddi iradlarını bildirib. Bakı Şəhər Mənzil və Kommunal Təsərrüfatı Departamentinin rəhbərliyinə trestin rəisinin vəzifədə saxlanılmasının mümkünlüyünü nəzərdən keçirmək tapşırılmışdı.



Yeni Müsavat
N 203 (8813) 7 noyabr 2025

# Moskva MDB ölkələrini Qərblə qorxudur

## Rusiya bu platformada iclasları ən müxtəlif səviyyələrdə intensivləşdirib; postsovet məkanına əsl təhdid haradandır?

**Moskvada Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun sədrliyi ilə MDB-yə üzv dövlətlərin Təhlükəsizlik şuraları katiblərinin 13-cü iclası keçirilib. TASS-ın məlumatına görə, MDB-yə təhdidlər, onlara cavab tədbirləri və Qərbin ideoloji təbliğatına qarşı mübarizə təhlükəsizlik şuraları katiblərinin 13-cü iclasının əsas mövzusu olub. İclasda “MDB-də təhlükəsizliyə qarşı çağırışlar və təhdidlər və mümkün birgə cavab tədbirləri” də müzakirə olunub.**

Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Azərbaycan, Ermənistan və Belarusdan olan həmkarları ilə ikitərəfli görüşlər keçirib. Şoyqu deyib ki, təhlükəsizlik şurası katiblərinin görüşü “etibarlı ünsiyyətin unikal formatı” adlandırıb. “Bu bizə yalnız ən mürəkkəb təhlükəsizlik məsələlərini açıq və konstruktiv şəkildə müzakirə imkan verir”.



Xatırladaq ki, ABŞ Hərbi Kəşfiyyat Agentliyi Rusiyanın Mərkəzi Asiyada və Cənubi Qafqaz regionunda artan təsirindən narahatlığını ifadə edən hesabat yaymışdı. ABŞ hərbi kəşfiyyatının hesabatında qeyd olunurdu ki, Rusiya Mərkəzi Asiyada ənənəvi təsir rıçaqlarını saxlayır. Moskvanın region dövlətləri ilə dərin tarixi, iqtisadi, siyasi, hərbi və mədəni əlaqələri Mərkəzi Asiyada davamlı mövcudluğunu saxlamağa imkan verir. Rusiya Mərkəzi Asiya təhlükəsizliyinə özünün ayrılmaz hissəsi kimi baxır. Hesabatda qeyd olunurdu ki, Rusiya bu ölkələrə, regionun təhlükəsizlik arxitekturasına nəzarət etmək üçün təkcə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) deyil, həm də MDB-dən istifadə edir. Aydındır ki, MDB çoxdan formal quruma çevrilib, amma Rusiya əsas moderator kimi qurumun saxlanılmasında, Qərb isə əksinə, dağılmasında maraqlıdır. ABŞ kəşfiyyatının son hesabatında da MDB-nin rolunun qabardılması təsadüfi deyil.

**VHP sədrinin müavini, professor Elxan Mirzəyevin** sözlərinə görə, MDB ölkələrinin müxtəlif səviyyələrdə iclaslarının təşkili intensivləşib. Onun fikrincə, buna səbəb Rusiyanın MDB məkanında təsirlərini saxladığını nümayiş etdirməkdir. Bundan əlavə də təhlükəsizlik orqanları rəhbərlərinin, daha öncə isə prezidentlərin sammitinin keçirildiyini yada salan E.Mirzəyev hesab edir ki, Rusiya narahatdır: “Bu narahatlığa səbəb Qərbin MDB məkanında yürütdüyü siyasətdir. İstər Cənubi Qafqaz, istər Orta Asiya olsun, Rusiyaya elə gəlir ki, rəqibləri bu regionları onun əlindən alır və özünü sıxışdırıb çıxarır. Sözsüz ki, MDB platformasında görüşlərin təşkili ilə Qərbin regionda təsirlərini zəiflətmək mümkün deyil. Hər bir halda, Rusiya addımlardan biri kimi bunu görür”.

**Professor MDB məkanına kənardan təhdidləri istisna etmir, lakin ən ciddi təhlükənin elə Rusiya olduğunu düşünür:** “Qərbin Rusiyaya olan təzyiqlərini Moskva bütün MDB-yə təhdid kimi qələmə verir. Halbuki bu hücumları bütün postsovet məkanının ayağına yazmaq doğru olmazdı. Təbii ki, Azərbaycan və digər ölkələr zaman-zaman xarici təhdidlərlə üzləşib. Bura kiberhücumlardan tutmuş müxtəlif istiqamətlərdə təhlükələrin olması daxildir. Lakin son iclasın mövzusu Qərbin ideoloji təbliğatına qarşı mübarizəyə həsr olunub. Yəni bu da Rusiyanın özü üçün narahatlıqdan xəbər verir. Faktiki olaraq Rusiya Qərblə "soyuq müharibə" və proksi savaş şəraitindədir. Bunu Ukrayna cəbhəsində, hibrid mübarizədə, Cənubi Qafqazda strateji rəqabətdə görmək olar. Ona görə də Rusiya Qərbin onu sıxışdırması kampaniyalarını MDB məkanının ayağına yazır. Ümumiyyətlə, MDB formatı yeni dünya nizamının qurulması prosesində dağılmağa məhkumdur. Bu birlik SSRİ dağılandan sonra, yarandı və zərurət var idi. İndi bir ictimai-siyasi formasiya dağılır, dünyada yenisi yaranır. Bu da ağrılı prosesdir və müharibələrə səbəb olur. Əslində dünyanın yenidən bölüşdürülməsi gedir və MDB formatı bu reallıqda özünü qoruya bilməyəcək. Çünki Rusiya əvvəlki dominantlığını qoruyub saxlaya bilməyib. Müharibə və Qərbin genişlənmə siyasəti Moskvanın mövqeyini zəiflədib".

**Ən əsası, professorun sözlərinə görə, Türk Dövlətləri Təşkilatı var:** “Onun həm dövlət başçıları, həm təhlükəsizlik şuralarının başçıları, həm parlament sədrləri və ən müxtəlif ranqlarda iclasları keçirilir. MDB ölkələrinin əksəriyyəti bu platformaya meyllənib. Başqa tərəfdən, Çin faktoru qəbul edilməlidir. Mərkəzi Asiya ölkələri qitənin nəhəngi ilə əməkdaşlığa üstünlük verir və onlar üçün Rusiya prioritet deyil. Azərbaycan Türkiyə ilə TDT-də perspektiv görür. Bu gün MDB üzv ölkələrə heç nə vəd etmir. Azərbaycan da özünün strateji siyasətini MDB üzərində qurmayıb”.

Məlumat üçün deyək ki, keçmiş SSRİ ölkələrinin əksəriyyətinin birləşdiyi dövlətlərarası birlik 1991-ci ilin 8 dekabrında yaradılıb. MDB-yə ilkin dövrdə 3 dövlət - Rusiya, Ukrayna, Belarus daxil idi. Bu dövlətlər SSRİ-nin dağılmasının (faktiki olaraq 25 dekabr 1991-ci il Qorbaçovun istefasından sonra dağıldı) labüdlüyünü anlayaraq, öz aralarında sonralar siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək üçün Müstəqil Dövlətlər Birliyini təşkil etdilər. MDB həm də SSRİ-nin “mədəni dağılması” bəyan etmək, onun mülklərini keçmiş İttifaq ölkələri arasında paylaşdırmaq üçün təşkil edilmişdi.

Daha sonra Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan 21 dekabr 1991-ci il tarixində Almatıda Rusiya, Ukrayna və Belarusla birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəldilər. Azərbaycan parlamenti bu qərarı yalnız 1993-cü ilin 24 sentyabrında ratifikasiya etdi və MDB-nin tam hüquqlu üzvü oldu.

1993-cü ilin oktyabrında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında Rusiya ordusunun Gürcüstana daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxdı. Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. Ukrayna 2014-cü ilin mart ayında Rusiya ordusunun Krıma daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxdı. Hazırda MDB-də 8-i nizamnamə, 69-u sahəvi əməkdaşlıq orqanları və 15-i digər qurumlar olmaqla, ümumilikdə 90-dan çox orqan fəaliyyət göstərir.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



Aleksey Overçuk

# Mişustinin müavini Biləcəridən gedən qatara görə sevindi

**Rusiya ilə Ermənistan arasında Azərbaycan və Gürcüstan ərazisindən keçən birbaşa dəmir yolu əlaqəsinin bərpası Cənubi Qafqazda sülhün və əməkdaşlığın möhkəmlənməsinə real töhfədir.**

“Teleqraf ” xəbər verir ki, bu barədə Rusiya baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, noyabrın 5-də axşam saatlarında Rusiya ərazisindən yola düşən taxıl daşıyan qatar Azərbaycan və Gürcüstan üzərindən Ermənistana çatıb: “Azərbaycan və Gürcüstan ərazisindən keçən Rusiya ilə Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsinin başlanmasını alqışlayıram. Ermənistan müstəqillik əldə etdikdən sonra ilk dəfə bu formatda birbaşa nəqliyyat əlaqəsi qurulur. Bu hadisə Cənubi Qafqazda sülhün bərqərar olmasına, regional sabitliyə və iqtisadi inkişafına real töhfədir”.

Aleksey Overçuk qeyd edib ki, yeni marşrut Rusiyanın Cənubi Qafqaz ölkələri ilə nəqliyyat əlaqələrini gücləndirəcək, Ermənistan bazarlarının Avrasiya İqtisadi İttifaqına (Aİİ) üzv ölkələr üçün əlçatanlığını artıracaq, eyni zamanda Ermənistan məhsullarının Aİİ bazarlarına çıxışını asanlaşdıracaq: “Bu yolla ilk daşınan yükün Rusiya taxılı olması simvolik məna daşıyır. Taxıl həyatın və yaradıcılığın rəmzidir. Bu fakt Cənubi Qafqazda qarşıdurmadan əməkdaşlığa keçid istiqamətində ümumi istəyimizi bir daha nümayiş etdirir”.

**Ölkə rəsmisi həmçinin regionda nəqliyyat əlaqələrinin bərpası istiqamətində əməkdaşlığa görə tərəfdaş ölkələrə təşəkkür edib:** “Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı birgə fəaliyyətə görə Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevə, Ermənistan baş nazirinin müavini Mqer Qriqoryana, eləcə də bu marşrutun təşkili prosesində konstruktiv mövqe nümayiş etdirdiyinə görə Gürcüstana təşəkkürümü bildirirəm”.

Qeyd edək ki, Azərbaycan ərazisindən keçməklə Ermənistana Qazaxıstan taxılı daşıyan 15 vaqondan ibarət yük qatarı Biləcəri dəmiryol stansiyasına çatıb.

“Cebheinfo.az” xəbər verir ki, yük Yalama-Biləcəri-Hacıqabul-Böyük Kəsik marşrutu üzrə daşınır. Daha sonra qatar Gürcüstana keçəcək, oradan isə Ermənistanın Dalarik stansiyasına gedəcək.

❑ **“Yeni Müsavat”**

# NATO-nun Azərbaycanda döyüş hazırlığı

## Bakı alyansın 33-cü üzvü olarmı, yoxsa prioritet "Turan ordusu"dur? - hərbi analitikin rəyi



**Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində "Quru qoşunları qərargahı, hissə və bölmələrinin döyüşə hazır olmasının qiymətləndirilməsi (CREVAL)" kursu keçirilir.**

Milli Müdafiə Universitetinin Hərb Oyunları Mərkəzində keçirilən tədbirdə NATO və tərəfdaş ölkələrin bu sahə üzrə hərbi qulluqçuları iştirak edirlər.

Kursun məqsədi Alyansın Ortaq Qüvvələr Birliyinə bəyan edilən hissə və bölmələrinin qiymətləndirilməsi üçün hərbi qulluqçuları sertifikatlaşdırmaqdır.

Qeyd edək ki, tədbirdə NATO-ya üzv və tərəfdaş ölkələrdən ümumilikdə 39-dək nümayəndə iştirak edir.

Bakı-Moskva münasibətləri gərgin olan vaxt Rusiya Azərbaycanın NATO ilə əlaqələrinə dair xəbərlərinə qıcıqlı reaksiyası ilə də diqqət çəkirdi. Kremlə yaxınlığı ilə tanınan media Azərbaycanın Qarabağda əldə etdiyi qələbədən sonra Qərbə yönəldiyini və NATO ilə daha dərin əməkdaşlıqlar barədə düşündüyünü iddia edirdi.

Sirr deyil ki, zəngin enerji resurslarından tutmuş müasir, döyüş qabiliyyətli orduya, eləcədə çoxvektorlu xarici siyasətə qadir Azərbaycan NATO-nun "cənub cinahında" mərkəzi aktora çevrilib. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" kimi proqramları çərçivəsində dialoqu davam etdirir. Amma yeni reallıqlar fonunda bu tərəfdaşlığın daha genişləndirilmiş və modernləşdirilmiş versiyasının yaradılması mümkündür. Belə bir format Azərbaycanın mövcud strateji çəkisini və qarşılıqlı maraqların səviyyəsini daha adekvat əks etdirməlidir.

Avropa ilə Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" kimi proqramları çərçivəsində dialoqu davam etdirir. Amma yeni reallıqlar fonunda bu tərəfdaşlığın daha genişləndirilmiş və modernləşdirilmiş versiyasının yaradılması müzakirə olunur. Belə bir format Azərbaycanın mövcud strateji çəkisini və qarşılıqlı maraqların səviyyəsini daha adekvat əks etdirməlidir.

Ekspertlərə görə, NATO Ukrayna müharibəsi səbəbindən daxili dartışmalara başa vurub Cənubi Qafqaz ölkələrinə yeni, dəqiq və vahid gündəlik təklif etməyə hazır olduqda, Azərbaycan danışıqlara güc mövqeyindən çıxış edəcək.

Üstəlik, bu ilin yayında, yəni Azərbaycan-Rusiya əlaqələrinin gərgin dönəmində Kremlə yaxın "Svobodnaya pressa" Cənubi Qafqazdakı prosesləri Qərbin təsirləri prizmasından təhlil etmişdi. "Rusiya ilə Azərbaycan arasındakı gərginlik bizi Bakıya təkcə siyasi deyil, həm də hərbi baxımdan daha yaxından baxmağa məcbur edir. Bu, Azərbaycanın NATO-ya daxil olma ehtimalı və bu Qafqaz respublikasının ərazisində türk hərbi bazasının qurulması müzakirələridir", - deyə, sayt öz məqaləsində yazmışdı.

Həmin "təhlil"də hətta belə nəticə çıxılmışdı: "Azərbaycan öz seçimini edib. Bakı Qarabağdakı qələbədən sonra NATO ilə daha böyük əməkdaşlıq haqda düşünməyə başlayıb. Azərbaycanda NATO-nun ən böyük bazasının tikilməsi ehtimalı ilə bağlı yayılan məlumatlar bu ölkənin İran və Rusiyaya təzyiq alətinə çevrildiyini təsdiqləyir".

Yada salaq ki, NATO hərbi təşkilat olaraq "soyuq müharibə" dövründə 1949-cu il aprelin 4-də yaradılıb. Yaradılarkən 12 dövlətdən ibarət olan NATO, indi sıralarında keçmiş postsovet ölkələrindən 3-ü daxil olmaqla 32 dövləti birləşdirir.

Bəs Azərbaycan 33-cü üzv olarmı, yoxsa əsas prioritet Türk Dövlətlər Təşkilatı -"Turan ordusu"durmu?

**Hərbi ekspert Ramil Məmmədli yada saldı ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür:** "Bu da bizi bloklararası toqquşmalardan yayındırır. Azərbaycan hərbi alyansa qoşulmaq niyyətini ortaya qoymayıb. Çünki belə bir seçim ciddi problemlərə və təhdidlərə səbəb ola bilər. Rusiyanın Ukraynada işğalçı hərəkətləri məhz NATO-nun şərqə doğru genişlənməsi planından irəli gəlir. Həmçinin Azərbaycan KTMT-yə də üzv olmayıb. Buna da ehtiyac yoxdur. Nə NATO, nə KTMT üzvü olmaq lazımdır. Bu gün onsuz da müxtəlif formatlarda hərbi təlimlər keçirilir. Azərbaycan Türkiyə və Pakistanla, sonra Mərkəzi Asiya və ərəb ölkələri ilə birgə təlimlərdə iştirak edir, təcrübə toplayır. İkincisi, NATO üzvü olmaq bizi açıq şəkildə Rusiya ilə üz-üzə qoya bilər. Nəzərə alaq ki, bu ölkə ilə həm quru, həm su sərhədimiz var. Belə bir sərhədi olan Azərbaycanı NATO-ya üzv etməklə ciddi təhdidlə üzləşdirə bilərlər".

**Bununla belə, hərbi təhlilçi qeyd etdi ki, Azərbaycan-NATO əməkdaşlığı genişlənir, münasibətlərin 30 ili qeyd olundu, artıq 31-ci ili tamamlanır:** "Bu dövr ərzində müxtəlif proqramlar, kurslar olub, təcrübə mübadiləsi aparılıb, əməkdaşlıq getdikcə genişlənməkdədir. Amma bizim NATO dövləti olan Türkiyə kimi müttəfiqimiz var. Ən əsası NATO-ya üzvlük qədər təhlükəsizliyə təminat verən Şuşa Bəyannaməsi var. Bunun özü elə alyansa qoşulmaq qədər böyük əhəmiyyəti olan sənəddir. Eyni zamanda Azərbaycan nüvə dövləti Pakistanla müttəfiqdir. Bu mənada Şimali Atlantika Alyansına üzvlük müsbət tərəfləri ilə yanaşı ciddi problemlər də gətirə bilər. Əksinə, Türkiyə və Pakistanla hərbi müttəfiqliyi daha da möhkəmləndirməli, bir ittifaqa çevirməliyik".

**R.Məmmədli TDT-nin hərbi təlimlərinə gəlincə, bunu mümkün sayır:** "Prezidentin Qəbələdə belə bir təklifi oldu. Məncə, reallaşması üçün addımlar atılacaq. Türkdilli dövlətlərin öz "NATO"su niyə də qurulmasın?! Hazırda bunun üçün ciddi imkanlar yaranıb. Odur ki, bu təşkilatın gücləndirilməsinə üstünlük verilməsinin tərəfdarıyam, nəinki NATO üzvlüyü haqda düşünməyin. Amma dediyim kimi, bu hərbi alyansla əməkdaşlıq da inkişaf etməlidir. Nəzərə alaq ki, Azərbaycan İraq, Əfqanıstan və Kosovoda NATO tərkibində sülhməramlı missiyası ilə təmsil olunub. Yeri gəlmişkən, son həftələr bizim sülhməramlıların Qəzzada xidmət keçəcəyi xəbərləri də var. Bunun BMT müstəvisində olacağı gözlənilir. Yəni biz bu şəkildə faydalı ola bilərik. Bilirsiniz ki, Gürcüstan və Moldova da NATO üzvlüyü həvəsinə düşmüşdü. Ancaq bu gün Rusiya ilə problemləri var. Biz belə bir qarşıdurmanın mərkəzinə çevrilmək istəmirik. Hər şey göz qabağındadır, Moskva gizlətmir və açıq şəkildə bəyan edir ki, onun çevrəsinə NATO-nun yaxınlaşması gərginliyə səbəb olacaq. Bunun da ən ağır fəsadları Ukrayna şəhərlərinin dağıdılmasıdır. Azərbaycan Qoşulmama Hərəkatında uğurlu fəaliyyət göstərir, müttəfiqləri ilə hərbi əməkdaşlığını inkişaf etdirir, müdafiə qabiliyyətini və ordusunun peşəkarlığını artırır. Bunu NATO ilə müxtəlif kurslar çərçivəsində də, müttəfiq və tərəfdaş ölkələrlə hərbi təlimlərlə də davam etdirir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## Hərbi parada hazırlıq yekunlaşdı

**Bakıda Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradla bağlı məşqlər yekunlaşıb. Noyabrın 8-də Bakıda keçiriləcək paradda Türkiyə və Pakistan hərbçiləri də iştirak edəcəklər. Artıq hər iki ölkənin hərbçiləri Azərbaycana gəlib.**

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın baş naziri Şəhbaz Şərif paradda iştirak etmək üçün Azərbaycana səfər edəcəklər.

Qələbənin beşinci ildönümünün qeyd olunması münasibətilə Bakıda hərbi orkestrlərin müşayiəti ilə yürüşlər təşkil edilib. Xankəndi şəhərində də 8 Noyabr - Zəfər gününün 5-ci ildönümü münasibətilə hərbçilərin yürüşü keçirilib. Yürüşü izləmək üçün küçələrə toplaşan şəhər sakinləri hərbçiləri salamlayaraq, Zəfər münasibətilə şüarlar səsləndiriblər. Naxçıvanda da Zəfər Günü ilə bağlı hərbi yürüş keçirilib. Yürüşdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak edib. Hərbi qulluqçular orkestrin müşayiəti ilə Naxçıvan şəhərinin Dilqəm Pişəvəri, Əziz Əliyev küçələri və Heydər Əliyev prospektinin kəsişməsindən "Zəfər parkı"nadək davam edəcək yürüşdə hərbi vətənpərvərlik ruhunda marşlar və şüarlar səsləndiriblər.

Xatırladaq ki, 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Vətən müharibəsində qələbə şərəfinə Zəfər paradı keçirilib. 2023-cü il noyabrın 8-də isə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad olub. Bu il isə noyabrın 8-də paytaxtın Azadlıq meydanında hərbi parad təşkil olunacaq.



## ABŞ-nin Milli Qvardiyasının nümayəndə heyəti Bakıda

**ABŞ-nin Oklahoma Milli Qvardiyasının Birgə Qərargahlar rəisi briqada generalı Kolbi Uaytın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.**

ABŞ nümayəndə heyəti əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov ABŞ nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycanla ABŞ-nin Oklahoma ştatı arasında ikitərəfli hərbi əməkdaşlıq sahəsində əlaqələrin möhkəmləndirilməsi və bu istiqamətdə həyata keçirilən tədbirlər müzakirə edilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

## Ermənilər niyə indi xarici əks-kəşfiyyat xidməti yaradır?

**Nikol Paşinyan hökuməti təhlükəsizlik orqanları barədə daha bir addım atmağa hazırlaşır. Belə ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti (MTX) yanında Xarici Əks-Kəşfiyyat Xidməti yaradılacaq. Erməni KİV-lərinin məlumatına görə, hökumətin "Milli təhlükəsizlik orqanları haqqında" Qanuna müvafiq dəyişikliklər layihəsi tezliklə parlamentə təqdim ediləcək.**

Qanun layihəsinin MTX və Xarici Kəşfiyyat Xidmətinin funksiyalarının bölünməsi ilə əlaqədar qəbul edilməsi təklif olunur. Ölkənin xarici kəşfiyyat fəaliyyəti ilə Xarici Kəşfiyyat Xidməti məşğul olacaq, xarici əks-kəşfiyyat isə MTX-nin strukturunda qalmalıdır.

Bunun üçün MTX-də müvafiq bölmənin yaradılması, eləcə də onun Xarici Kəşfiyyat Xidməti ilə qarşılıqlı əlaqəsinin tənzimlənməsi zərurəti yaranıb. Yeni bölmənin vəzifələrinə Ermənistanın xaricdəki diplomatik nümayəndəliklərinin təhlükəsizliyinin təmin edilməsi də daxil olacaq.

## "Artsax investisiya fondu"ndan 27 milyon dollar mənimsənilib

**Torpaqlarımızın işğalı zamanı yaradılmış qondarma "artsax investisiya fondu"nun vəsaitləri mənimsənib. Sən demə, Qarabağın işğal altında olduğu onilliklər boyu erməni məmur və oliqarxlar da o torpaqlar hesabına "babat" yeyintilər ediblər.**

"Johovurd" qəzetinə bildirilib ki, hesabata əsasən, erməni vergi ödəyiciləri tərəfindən yuxarıda adıçəkilən "artsax investisiya fondu"na toplanan və köçürülən vəsaitlərin Britaniya adalarında qeydiyyatdan keçmiş və İsveçrə banklarından birində ofşorda yerləşən şirkətlər tərəfindən israf edildiyi korrupsiya prosesləri zənciri üzə çıxıb. Ümumilikdə, söhbət erməni vergi ödəyicilərinin vəsaitləri hesabına toplanan və əsasən 46-47 ailənin istifadə etdiyi 467 milyon dollardan gedir.

2006-cı ildə fəaliyyətə başlayan, 100% payı o vaxt "Berdzor" adlanan Laçın şəhərinin qondarma "mer"i Artur Saakyana məxsus olan "İmast" MMC 2006-cı ildə qeydiyyatdan keçsə də, maliyyə dairəsinə sonradan daxil olub. Maliyyə piramidası şirkətin səhmlərinin 75%-i müəyyən bir Narine Hovhannisyana verildikdə qurulmağa başlanıb. 2017-ci ildə şirkətin adı dəyişdirilib, dövriyyəyə başlanaraq "Multicontinental Distribution" MMC, sonra 2016-cı ildə yenidən dəyişdirilib, bu dəfə "M. Energo Invest" MMC-yə çevrilib.

Britaniya ofşorunda qeydiyyatdan keçmiş "Multicontinental Distribution" MMC-nin 75%-i və "M. Energo Invest" MMC-nin 37,6%-i İsveçrə-Ermənistanı Vardan Srmakeşə məxsusdur. Artsaxda SES-ləri idarə edən şirkət "M. Energo Invest" MMC olub. Vardan Srmakeş "Frank Muller" şirkətinin prezidenti və "Armswissbank"ın sahibidir. Məhz Srmakeşin ətrafında şübhəli dairə yaranıb.

Xatırladaq ki, bu, həmin V.Srmakeşdir ki, işğal dövründə onun Qarabağda bir sıra qızıl və digər əlvan metal mədənlərinin istismarında iştirakı sənədlərlə təsdiqlənib. Təqdim olunan hesabata görə, "artsax investisiya fondu"ndan 27 milyon dollar mənimsənilib.

# Vardanyanın xilas üçün sərhəd hiyləsi

### Bakıda mühakimə olunan separatçı iddia edir ki, guya o, "sərhədini keçəndə" həmin bölgədə Azərbaycan postu olmayıb, amma...



**Ermənistan vətəndaşı Ruben Vardanyanın noyabrın 4-də keçirilən məhkəmə prosesi onun absurd tələbi ilə diqqət çəkib. Ruben Vardanyan növbəti vəsatətini təqdim edərək məhkəmə iclasına Azərbaycan Dövlət Sərhəd Xidmətinin nümayəndəsinin dəvət olunmasını xahiş edib. Deyib ki, bu, ona qarşı irəli sürülən ittiham üzrə maddələrdən biri - Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə ilə bağlıdır. Vardanyanın müdafiəçisi Emil Babışov da təqsirləndirilən şəxsin mövqeyini və vəsatətini müdafiə etdiyini bildirərək təmin olunmasını xahiş edib.**

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev müdafiə tərəfinin vəsatətində kimin hansı səbəbdən dindirilməsini, həmin şəxsin şahid qismində hansı ifadəni verə biləcəyinin və bunun ifadənin təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihama nə kimi aidiyyətinin olmasını aydın göstərmədiyini, həmçinin Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının hazırkı iş üzrə qanunsuz sərhəd keçməyə dair ifadələrinə zərurət olmadığını deyib.

Bildirib ki, əgər təqsirləndirilən şəxs Azərbaycan Respublikasının dövlət sərhədini ittihamın əksinə olaraq qanuni şəkildə keçdiyini iddia edirsə və bunu sübut etmək istəyirsə, buna dair qanunlarda nəzərdə tutulmuş qaydalar var. Təqsirləndirilən şəxs Azərbaycanın ərazisinə qanuni şəkildə daxil olubsa, onun ümumvətəndaş pasportunda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin möhürü olmalıdır. Pasportunda həmin möhürü göstərməklə sübut edə bilər.

Vüsal Əliyev vəsatətin təmin olunmamasını məhkəmədən xahiş edib. Məhkəmə tərəfləri dinləyərək qərar qəbul edib. Qərara əsasən vəsatət baxılmamış saxlanılıb.

Ruben Vardanyanın gətirdiyi "arqumentləri" vaxtilə Avropa Məhkəməsinə daşıyan separatçılar da olub. Ruben Vardanyan və vəkilinin Azərbaycan sərhədini qanuni keçməsinə dair iddiası, əslində, beynəlxalq hüquqda artıq cavablandırılmış məsələdir. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) oxşar situasiyalarla bağlı çoxsaylı qərar qəbul edib və bu qərarların məntiqi tam şəkildə Vardanyanın vəziyyətinə aiddir. Məsələn, "İlaşcu və digərləri Moldovaya və Rusiyaya qarşı" (2004) işində məhkəmə bəyan etmişdi ki, beynəlxalq səviyyədə tanınmayan "Dnestryanı Respublikası" adlı qurumun qəbul etdiyi qərarlar və həyata keçirdiyi "idarəçilik" aktları hüquqi qüvvəyə malik deyil. AİHM açıq şəkildə bildirdi ki, belə ərazilərdə fəaliyyət göstərən şəxslər tanınmış dövlətin, yəni Moldovanın qanunlarına tabedirlər. Bu presedent göstərir ki, Ruben Vardanyanın da Laçın dəhlizi vasitəsilə qanuni keçid iddiası hüquqi baxımdan əsassızdır. Çünki Qarabağ ərazisi beynəlxalq səviyyədə Azərbaycanın suveren ərazisidir və oradan icazəsiz keçid, istər sülhməramlı müşahidəsi altında olsun, istərsə də yerli rəhbərliklə razılaşdırılmış, qanunsuz sayılır. "Catan və digərləri Moldovaya və Rusiyaya qarşı" (2012) işində də AİHM separatçı rejimin "öz qanunları"nı tətbiq etməsini tanımayıb və qeyd edib ki, beynəlxalq hüquqa görə həmin ərazinin statusu dəyişmir. Beləliklə, "faktiki idarəetmə" heç vaxt "qanuni idarəetmə" anlamına gəlmir. Vardanyan məhz belə bir arqument irəli sürür ki, guya o, "Azərbaycan sərhədini keçəndə" həmin bölgədə rəsmi Azərbaycan postu olmayıb. Ancaq AİHM-in qərarına görə, bu amil suverenliyin dəyişməsi anlamına gəlmir. Yəni sərhəd postu orada olsa da, olmasa da, ərazi Azərbaycanındır və ora icazəsiz daxil olan şəxs qanunu pozur. "Mozer Moldovaya və Rusiyaya qarşı" (2016) işi üzrə verilən qərarda da AİHM "Dnestryanı" adlı qurumun istənilən hüquqi aktını, sənədini və qərarını hüquqi baxımdan etibarsız sayıb. Məhkəmə vurğulayıb ki, belə rejimlər beynəlxalq tanınmadığı üçün onların "icazələri" və "sərhəd nəzarətləri" də heç bir hüquqi qüvvəyə malik deyil. Bu presedentə görə, Vardanyanın "sərhədi qanuni keçməsi" üçün ya Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin möhürü, ya da Azərbaycan tərəfinin rəsmi icazəsi olmalı idi. Bu sənədlər olmadıqda, istənilən keçid faktı, xüsusilə də gizli şəkildə və separatçı məqsədlərlə qanunsuz sayılır. AİHM-in presedent hüququ bir mənanı ortaya qoyur: separatçı və tanınmamış rejimlərin nəzarət etdiyi ərazilərdə "qanuni sərhəd keçidi" anlayışı yoxdur. Həmin ərazilərə daxil olan istənilən şəxs beynəlxalq səviyyədə tanınmış dövlətin, bu halda Azərbaycanın qanunlarını pozub. Deməli, Ruben Vardanyanın sərhədi "qanuni keçdiyini" sübut etmək üçün istinad etdiyi arqumentlər hüquqi dəyər daşımır. Bu iddia onun özünün cinayət məsuliyyətini yüngülləşdirmir, sadəcə, məhkəmə prosesini uzatmaq və siyasi mübahisə atmosferi yaratmaq cəhdidir.

Bəs indiki halda Vardanyan Dövlət Sərhəd Xidmətinin nümayəndəsinin dəvət olunmasını niyə xahiş edib? Doğrudanmı sərhədi qanuni keçdiyini düşünür?

**Beynəlxalq hüquq üzrə ekspert, politoloq Fərhad Mehdiyev "Yeni Müsavat"a deyib ki, Laçın rayonunun Ermənistanla sərhəd olan hissəsi Azərbaycanın beynəlxalq tanınan sərhədləri daxilindədir:** "2020-ci ilin noyabrından etibarən Azərbaycan bu məsələ ilə bağlı dəfələrlə beynəlxalq tərəfdaşlarına nota göndərmişdi. Qanunsuz keçid halları, o cümlədən Ruben Vardanyan kimi şəxslərin Laçın dəhlizi vasitəsilə Qarabağa daxil olması ölkəmizin suveren hüquqlarının pozulması kimi qiymətləndirilib. Əgər Vardanyan iddia edirsə ki, sərhədi qanuni şəkildə keçib, o zaman bu "qanuni keçid"in hansı dövlət orqanının icazəsi ilə baş verdiyini, pasportuna hansı möhürün vurulduğunu sübut etməlidir. Halbuki nə onun, nə də digər separatçı fiqurların belə sənədləri təqdim etməsi mümkün deyil. Çünki həmin dövrdə Azərbaycan ərazisində qanuni keçid məntəqələri fəaliyyət göstərmirdi, yalnız Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan zonadan istifadə edilirdi. Bu isə beynəlxalq hüquq baxımından Azərbaycanın razılığı olmadan həyata keçirilən hərəkət deməkdir. Vardanyanın məhkəmədə Dövlət Sərhəd Xidmətinin nümayəndəsini çağırmaqdla məqsədi prosesi uzatmaq, sərhədin statusu barədə süni mübahisə yaratmaqdır. O, özünü siyasi məhbus, yaxud qanunsuz saxlanılan şəxs kimi təqdim etməyə çalışır. Halbuki ortada faktlar var, Ruben Vardanyan Azərbaycanın suveren ərazisinə gizli yolla, heç bir rəsmi icazə almadan daxil olub, sonra isə orada separatçı fəaliyyətlə məşğul olub".

**Fərhad Mehdiyevin sözlərinə görə, istər beynəlxalq hüquq, istərsə də Azərbaycan qanunvericiliyi baxımından bu, açıq şəkildə dövlət sərhədini qanunsuz keçməkdir və cinayət sayılır:** "Azərbaycanın mövqeyi bu məsələdə tam legitimdir. Dövlətin sərhədləri beynəlxalq səviyyədə tanınmışdır və hər kəs, istər vətəndaş, istər əcnəbi olsun həmin sərhədi yalnız müəyyən edilmiş qaydalarla keçə bilər. Həmin ərazilərdə o dövrdə sərhəd postlarının olmaması, yaxud texniki nəzarətin Rusiya sülhməramlılarının əli ilə aparılması bu faktı dəyişmir. Çünki suverenlik prinsipi dəyişməzdir. Deməli, Vardanyan həmin ərazilərə daxil olmaqla, hüquqi baxımdan Azərbaycanın sərhəd qanunvericiliyini pozub".

**Ekspertin fikrincə, Ruben Vardanyanın bu cür vəsatətləri daha çox beynəlxalq ictimai rəyi manipulyasiya etmək, məhkəmənin qərəzli olduğu təəssüratını yaratmaq məqsədi daşıyır:** "Əslində isə onun hər bir addımı hüquqi baxımdan əvvəlcədən uduzulmuş bir strategiyadır. Çünki qanunsuz sərhəd keçidini nə arqumentlə, nə də ritorika ilə leqallaşdırmaq mümkün deyil".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025

**ABŞ-nin Ankaradakı səfiri və Suriya üzrə xüsusi nümayəndəsi Tom Barakın Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun forumunda verdiyi açıqlamalar regionda yeni strateji konfiqurasiyanın yaranmasına işarə edir. Birinci əsas məqam ondan ibarətdir ki, amerikalı diplomat Ankaranın fələstinlilərə tarixi dəstəyi ilə bağlı İsraillə arasında gərginliyə baxmayaraq, Vaşinqtonun onların silahlı münaqişəyə girməsinə heç vaxt icazə verməyəcəyini vurğulayıb.(mənbə: Haqqın.az)**

# ABŞ-nin Ankara səfirindən iki mühüm Azərbaycan mesajı

## Xəzərdən Aralıq dənizinə qədər yeni əməkdaşlıq platforması...

Barakın ikinci əhəmiyyətli bəyanatı ABŞ-nin Xəzərdən Aralıq dənizinə qədər yeni əməkdaşlıq platforması yaratmaq niyyəti ilə bağlı olub. Bu coğrafi dəhlizin Azərbaycan, Türkiyə və İsrail arasında enerji, eləcə də ticarət marşrutunu əhatə edəcəyi gözlənilir. ABŞ-nin Türkiyə və İsraili Xəzər-Aralıq dənizi dəhlizi boyunca birləşdirmək cəhdləri təkcə iqtisadi maraqlardan deyil, həm də İranın təsirini məhdudlaşdırmaq istəyindən irəli gəlir. Analitiklər hesab edirlər ki, Vaşinqton Tehranın ekspansionist siyasətinə qarşı Türkiyə-İsrail oxu yaratmaq və Yaxın Şərqdə qüvvələr balansını yenidən bölüşdürmək niyyətindədir.

Barakın açıqlamalarını Haqqın.az-a şərh edən türkiyəli politoloq Turqay Türker ABŞ səfirinin iki mühüm siqnal verdiyini qənaətindədir. Səfirin əsas mesajı ondan ibarətdir ki, Aralıq dənizinin təhlükəsizliyi İsrailin təhlükəsizliyi deməkdir. Xəzər dənizinin xatırlanmasına gəlincə, politoloq qeyd edib ki, bu, Moskva və Rusiya lideri Vladimir Putinə bir siqnaldır. “Xəzər-Aralıq dənizi marşrutu Tramp layihəsi kimi təqdim edilsə də, əslində bu, 30-40 il əvvəl düşünülmüş Qərb layihəsidir. Onun məqsədi Türkiyə üzərindən Aralıq dənizinə enerji axınını təmin etməkdir”, - deyə Türker bildirib.

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı** “Yeni Müsavat”a bildirdi ki, ABŞ-nin bölgədə xüsusilə Xəzərdən Aralıq dənizinə kimi uzanan yeni əməkdaşlıq platforması yaratmaq niyyəti Xəzər regionunun əhəmiyyətini göstərən vacib nüansdır: “Birləşmiş Ştatların Cənubi Qafqaz-Mərkəzi Asiya xətti üzrə maraqları hər kəsə məlumdur. Biz bu maraqların məhz Vaşinqton görüşündən sonra daha aydın şəkildə müşahidə etməyə başladıq. Təbii ki, əsas diqqətçəkən məqam Rusiya və İrandan yan keçən enerji və ticarət infrastrukturunun formalaşdırılmasında dayanır ki, burada alternativsiz mövqeyə malik tək ölkə məhz Azərbaycandır. Eyni zamanda qardaş Türkiyənin də rolunu və gücünü qiymətləndirmək lazımdır. Birləşmiş Ştatlar regionda əsas müttəfiqləri olan Türkiyə və İsrail arasında münasibətlərin gərginləşməsindən narahatdır. Belə məqamda Azərbaycanın hər iki ölkə ilə yüksək səviyyədə əlaqələrə sahib olması Vaşinqtonun bölgədə üçlü format yaratmaq təşəbbüsünü qüvvətləndirir”.



**G.Ağamalı dedi ki, Azərbaycan üçün bu inkişaflar bir fürsət olmaqla yanaşı, həm də regionda sabitliyin, suverenliyin və qarşılıqlı əməkdaşlığın artırılması istiqamətində önəmli addımlardır:** “Azərbaycan həm enerji, həm nəqliyyat, həm də diplomatik sahələrdə bu yeni formatlarda fəal iştirak etməyə hazırdır. Bu cür təşəbbüslərin Azərbaycan-Türkiyə-İsrail əlaqələrinin yeni mərhələsinə keçid üçün stimul verəcəyi qənaətindəyəm. Eyni zamanda bu istiqamətdə Azərbaycanın milli maraqlarının qorunması, regionda sülh və əməkdaşlıq çərçivələrinin genişləndirilməsi vacibdir”.

**“Müasir İnkişaf” İctimai Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü isə qeyd etdi ki, haqqında söhbət gedən məsələ çox maraqlı məsələdir:** “Amerika səfirinin bu məsələlərə bu şəkildə reaksiya verməsi çox maraqlı məqamlardan xəbər verir. Mən hesab edirəm ki, Türkiyə, İsrail, Azərbaycan münasibətlərini yaxınlaşdıraraq, əlaqələrini sıxlaşdıraraq, bu əlaqələr və münasibətlər üzərindən regionda yeni bir marşrut, platforma formalaşdırmaq maraqlı bir məqam kimi qeyd oluna bilər. Sadəcə olaraq, bu məsələnin reallaşma ehtimalı orada çətin görünür ki, Türkiyə və İsrail arasında münasibətlər çox gərgindir. Yəni belə gərgin münasibətləri olan iki dövlət arasında Amerika tərəfi necə bir üçlü müttəfiqlik münasibəti quracaq. Bunu bəlli etmək çox çətindir. Bu mənada mən hesab edirəm ki, əgər bu çətinlik olmazsa, ideyanın özü maraqlı gəlir. Sadəcə, onun reallaşma mexanizmini şəxsən çox çətin görürəm”.

❑ **Cavanşir ABBASLI,
“Yeni Müsavat”**

# Tehran “Tramp yolu”na qarşı?

## Ekspert: “İranın gözü qarşısında proses reallaşdırılır və buna mane ola bilməyəcək”

**İranlı politoloq Həsən Şirzadi noyabrın 4-də “Orbeli 2025” beynəlxalq forumunda çıxışında deyib ki, Tehran ABŞ-yə etibar etmir: "Niyə onlara etibar etməliyik? Əgər ABŞ Cənubi Qafqaz regionu üçün yaxşı bir şey etmək istəyirsə və hər şey belə bitərsə, bu, əladır. Əgər onlar Ermənistan və Azərbaycana sülh yolunda kömək edirlərsə, bu, yaxşıdır. Amma mən bunun perspektivinə o qədər də inanmıram.**




Onların “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) ilə bağlı planları nədən ibarətdir? Əgər marşrut budursa, yollarımız və Ermənistanla əlaqələrimiz məhdudlaşdırılmayacaqsa, heç bir problem yoxdur. Bu halda, bu yol İran yolu ilə rəqabət aparacaq və bu, problem deyil, biz buna hazırıq. Rəqabət hər şeydə yaxşıdır.

Lakin başa düşdüyüm qədər ABŞ həmişə hərbi komponenti nəzərə alır. Sərhədlərimiz boyunca Amerika podratçılarının təhlükəsizlikdə rol oynaması bizim üçün qəbuledilməzdir. Əgər bu, iqtisadi layihədirsə, deməli, çox yaxşıdır. Amma onlar bunun sırf iqtisadi layihə olduğunu sübut etməlidirlər".

İranlı ekspert əlavə edib ki, rəsmi Tehran layihənin hərbi, siyasi və ya digər məqsədlər üçün deyil, sırf iqtisadi məqsəd daşıdığından əmin olmalıdır

Ekspertə görə, Həsən Şirzadinin çıxışı İran rejiminin Azərbaycanla Ermənistan arasında sülh sazişinin parafլanmasından və kommunikasiyaların açılmasına dair razılaşmadan narahatlığını göstərir.

Yəni İran müxtəlif siyasi təxribatlara əl atmaqla regionda sülhün bərqərar olmasına və Zəngəzur dəhlizinin açılmasına mane olmağa çalışır. Yada salaq ki, ABŞ liderinin “Tramp yolu” (TRIPP) barədə sazişi İranın tələblərinə cavab verir. İranın ali dini liderinin müşaviri Əli Əkbər Vilayəti isə daha əvvəl demişdi ki, İran Qafqazda “Amerika dəhlizi”nin inşasının qarşısını alacaq. İran Prezidenti Məsud Pezeşkian isə “TRIPP”lə bağlı ölkəsinin “yeganə narahatlığının” yolun ABŞ şirkəti tərəfindən tikilməsi olduğunu desə də, Əli Əkbər Vilayəti bu mövzuda daha sərt çıxış edib. O bildirib ki, İran marşruta qarşı çıxacaq.

Zəngəzur dəhlizinin sırf iqtisadi layihə olduğunu İrana sübut etməyə ehtiyac varmı? Sübut edilməsə, məgər İran layihənin gerçəkləşməsinə imkan verməyəcək? Bacaracaqmı?

**Politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Zəngəzur dəhlizi mövzusunu aktuallaşdırdı, İranda isə ilk vaxtlardan etibarən mühafizəkarların əksəriyyəti buna qarşı çıxdılar, bu gün də həmin mövqedədirlər, lakin artıq açıq formada bəyanatlar verə bilmirlər:** “Hamısı bir ağızdan deyirdilər ki, Zəngəzur dəhlizi olmayacaq, buna İran imkan verməyəcək. Amma sonda nə baş verdi? 8 avqust 2025-ci ildə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi paraflandı, ABŞ-nin da iştirakı ilə TRAMP yolu elan edildi, razılaşmalar oldu və bu addım Azərbaycanla Ermənistanın istəkləri əsasında həyata keçirildi. İndi artıq dəhliz tikilir. Azərbaycan öz hissəsində dəhlizin tikintisini bitirmək üzrədir, Ermənistan isə gələn il öz ərazisindən keçəcək hissəsində tikintiyə başlayacaq. Yəni İranın gözləri qarşısında belə bir proses reallaşdırılır və İran indiyə qədər buna mane ola bilmədiyi kimi, bundan sonra da mane ola bilməyəcək. Halbuki illərdir "İran heç vaxt buna imkan verməyəcək" deyirdilər. Amma İranın bu mövqeyini nəzərə alan olmadı. Çünki İran mühafizəkarları əsassız yerə narazılıq edirdi və hay-küy salırdılar. Zəngəzur dəhlizi İrana qarşı layihə deyil. Əksinə, bu yoldan gələcəkdə İran və Rusiya da faydalana bilər. Digər tərəfdən, Azərbaycanla İran axı öz ərazilərindən öz aralarında da dəhliz tikirlər - Araz dəhlizi".

**Politoloq dedi ki, belə bir vəziyyətdə indi kimlərinsə “İran Zəngəzur dəhlizinə imkan verməz, Zəngəzur dəhlizi İranın təhlükəsizliyinə qarşıdır” kimi fikirləri ortaya atması sadəcə sözlərdir, boş hədələrdir:** “Bizim üçün önəmli olan İran rəsmi strukturlarının mövqeyidir. İran rəsmi strukturları, o cümlədən prezident Məsud Pezeşkian Zəngəzur dəhlizi-Tramp yolu əleyhinə heç nə demir. Çünki başa düşür ki, bu yol İranın da faydasınadır. Hansısa mühafizəkarlara yaxın siyasi şərhçinin və ya saytın mənasız hədə-qorxusunun və açıqlamasının prosesə heç bir təsiri olmayacaq”.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**



# Dünən xurma yeyən bir başçı

Zamin HACI
zaminhaci@gmail.com

**Hacıbala Abutalıbov Bakının müdiri olan vaxtlar onun buldozerləri "Xutor" tərəfdə bir cəbhəçinin ya evini, ya da dükanını - orasını dəqiq xatırlamıram - sökmüşdülər və rəsmi qərarı belə əsaslandırmışdılar: "Bu obyekt Xutorun memarlıq görkəmini pozur". Bakıda "Xutor" adlanan gecəqondular məhəlləsinin içindən keçmiş, yaxud onu kənardan seyr etmiş hər kəs Hacıbala müəllimin qara yumorunu anlamışdır.**

Ancaq ölkəmizdə memarlıqla məşğul olanlar təkcə Xutorda yaşamır. Təzəlikcə Qaradağ icra hakimiyyətində tuthatut mərasimi keçirilmiş, bir neçə məmur damlanmışdı. Onlardan biri icra başçısının müavini Nadir Yədulla oğlu Muradov idi, yəqin gələcəkdə başçının özünü tutsalar belə zarafat edə bilər: "Yədullanın oğlunun müsibəti heç belə olmamışdı". Lakin temadan kənarlaşmayaq, yoxsa gedib yarmarkaya girərik, alverə də pulumuz yoxdur. Tema isə bu idi ki, tutulanlar sırasında Qaradağ rayonunun memarı da var imiş.

Qaradağ və memarlıq - tam ziddiyyət təşkil edən anlayışlardır, çünki biz o rayonun əsasən çöllük-düzənlik və sənaye ərazilərindən ibarət olduğunu bilirik. Memarlıq anlayışı elə Sahil qəsəbəsinin bomboz, Sementzavodun tüstüsünə bələnmiş sovetdənqalma tikililərinə və bir də "Sədərək"lə "Binə" yarmarkasının xaotik dükan cərgələrinə yaraşır. Vəzifə isə var imiş. O memar vəzifəsini saxta şəkildə orda yaratmaq bizim hökumətin nəyinə lazım idi? Axı elementar məntiq deyir ki, həmin memar boş-bekar qalıb korrupsiyaya qurşanmağa məcbur idi. Qaradağda memar ştatı açmaq təxminən Ermənistanda Dənizçilik Nazirliyi yaratmaq kimi şeydir.

Əslində bütün rayon icra hakimiyyətlərimizdə bu tipli vəzifələr pul silmək, korrupsiyadan başqa şey deyil. Yəni yanlış anlaşılmasın, mən "Memar Lökbatanda nə iş görürdü" sual edərkən oxşar tiplərin guya Səbayeldə, Nəsimidə, Binəqədidə... mühüm dövlətçilik funksiyaları ilə, tarixi-estetik planlaşdırma ilə məşğul olması fikrindən uzağam. Milli korrupsionerlərimiz üçün "Ala dağla Qara dağın" fərqi yoxdur.

Misal üçün, təzəlikcə Balakəndə icra başçısının özünü şəxsən tutub basdılar. Məlum oldu adam 2011-ci ildən həmin vəzifədə oturmuş. 14 il. Təsəvvür edin. Bu müddətdə camaatın uşağı natamam orta məktəbi qurtarıb hansısa peşə məktəbinə girir, o yoldaş isə Balakənin canına zəli kimi yapışıb sorurdu. Bəs biz onun həmin nöqtədə 14 ildir icra başçısı olduğunu bilirdikmi? Heç bilmirdik. Çünki kirimişcə, xımır-xımır yeyirdi. Hansısa başqa motivlə, inkişaf və ya tərəqqi xəbərləri ilə Balakənin ismi-şərifi media lentlərinə çıxmazdı. Az qala tamamilə unutmuşduq ki, elə bir bölgəmiz var. (Yuxarıdakı diskursa qayıtsaq, eyni şey başqa rayonlara da aiddir. Biz bölgələrimizi adətən kriminal xəbərlərlə yada salırıq, ya da inəklər dabaq olanda və pomidorlar tarlada, mandarinlər ağacda çürüyəndə).

Və Balakənin icra başçısı İslam müəllim həbs ediləndən sonra belə bir tragikomik xəbər yayıldı: "Həbs olunan icra başçısı dünən rayonda Xurma festivalında iştirak edibmiş". (Bu temada Anadoludakı kardeşlərimizin gözəl ata sözü var: "Dün yediyin xurmalar, bu gün g..ünü tırmalar"). Fotolar-zad da var idi, orada İslam müəllim piramida şəklində düzülmüş narıncı xurma cərgələri arasında kostyumda şəstlə gəzişir, mis cürdəklərin dibində oturmuş kəlağayılı zənənlərlə dilxoşluq edir, hətta yeni ağac əkənlərə baxırdı. Yəqin arxa planda vedrədə su tökməyi də olub, lakin xalqımız bu vacib informasiyanı görmədi. Eybi yoxdur, yatsın-çıxsın, təzə xurmalar əkər.

Xurma festivalından, Nar bayramından, nə bilim, Qarpız konfransından dərhal türməyə gedən məmurlarımız nə birincidir, nə ikinci. Bəlkə biz yaradıcı yanaşaq, birbaşa Korrupsiya Festivalı keçirək? Əgər lazımdırsa bunun konsepsiyasını hazırlaya bilərəm.

Sonda bayaq Balakən Xurma festivalını təsvir edərkən ağlıma gələn bir sualı da yazım. Qəribədir ki, bizdə istənilən milli, dövlət, aqrar, texniki, sənaye, elmi, pedaqoji... tədbirlərdə mütləq kəlağayılı zənənlər, tarçalan dəstəsi və mis cürdəklər olmalıdır. Görəsən, bunun mənası və səbəbi nədir?




# Bakıya "Kreml saatı ilə işləyin" israrı

## Rusiya 3+3 formatını anti-ABŞ formatına çevirmək istəyir

**Bakı ilə İrəvan arasında sülh prosesində nəzərəçarpacaq irəliləyiş fonunda Moskva regionda itirilmiş mövqelərini bərpa etməyə çalışır. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu erməni həmkarı Armen Qriqoryanla görüşdə Cənubi Qafqaza xüsusi diqqət yetirib.**

"Cənubi Qafqazdakı vəziyyət daimi diqqət tələb edir. Saatlarımızı sinxronlaşdırmaq bizim üçün vacibdir. Son hadisələrlə, regionda baş verən müxtəlif hadisələrlə bağlı hər şey - bütövlükdə Qafqazda, Cənubi Qafqazda - bizim daimi diqqətimizi və məsləhətləşmələrimizi tələb edir", - Şoyqu deyib.

Sergey Şoyqu MDB Təhlükəsizlik Şurası katiblərinin görüşündəki çıxışında da Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasının böyük əhəmiyyət kəsb etdiyini qeyd edib. O, ümumilikdə Cənubi Qafqazdakı vəziyyətdə yaxşılaşma tendensiyasının olduğunu söyləyib. TŞ katibi deyib ki, Moskva Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına əhəmiyyətli töhfə verib. Onun sözlərinə görə, Rusiya uzun müddət regionda sabitliyin təmin olunması və sülhün bərqərar olması üçün səylər göstərib: "Rusiya Ermənistan və Azərbaycan arasında tam həllini tapmamış münasibətlərin tənzimlənməsinə ciddi töhfə verib. Bütün bu müddət ərzində biz bölgədə sabitliyin təmin olunması və sülhün bərqərar olması üçün hər şeyi etdik". Şoyqu deyib ki, Ermənistan və Azərbaycan arasında münasibətlər hələ tam şəkildə tənzimlənməyib. TŞ katibi Cənubi Qafqazda 3+3 formatında fəaliyyəti bərpa etmək lazım olduğunu deyib.

"Altılıq" formatında Cənubi Qafqazın üç ölkəsi - Azərbaycan, Gürcüstan və Ermənistanla yanaşı, region ölkələri Rusiya, İran və Türkiyə var. İran Rusiya ilə bir sıra məsələlərdə strateji partnyorluq edir. Həm Moskva, həm də Tehran ABŞ və Avropa İttifaqının bölgədə olmasının qəti əleyhinədir.

Vaşinqton görüşündən və ABŞ-də Ermənistan və Azərbaycan arasındakı anlaşmalardan sonra Rusiya narahatdır. Çünki Kreml ABŞ-nin Cənubi Qafqazda özü də uzunmüddətli olmasını qətiyyən istəmir. "Tramp yolu"nun ABŞ-nin nəzarətində olması Rusiya üçün qəbuledilməzdir. Ona görə də Rusiya 3+3 formatı ilə əslində ABŞ-ni sıradan çıxarmaq niyyəti güdür. Son günlərdə 3+3 formatının Rusiya rəsmiləri tərəfindən tez-tez gündəmə gətirilməsinin səbəbi budur.

Məsələ ilə bağlı **politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Rusiya Cənubi Qafqazdakı əvvəlki təsir imkanlarını, nüfuzunu geri qaytarmaq üçün ən müxtəlif istiqamətlərdə xeyli vaxtdır cəhdlər edir: "Rusiya bunun üçün Cənubi Qafqaz ölkələrinə gah açıq və gizli təzyiq üsullarından istifadə edir, gah da yumşaq taktikaya keçir. Azərbaycana qarşı keçən ilin sonlarından etibarən təzyiq, hədə metodunu seçdilər. Nəticədə Azərbaycan-Rusiya münasibətləri heç vaxt olmadığı həddə gərginləşdi. Azərbaycan haqlı mövqedə olduğu üçün öz haqlı mövqeyində qaldı. Rusiya 10 aya yaxın təzyiq siyasətinin Azərbaycanı qorxutmadığını və bu vəziyyətin Rusiyanın özünə zərər vurduğunu gördü. Ona görə də münasibətləri yumşaltmaq qərarına gəldi. Ermənistanla da Nikol Paşinyan hakimiyyətə gələndən bəri, xüsusilə də son bir neçə ildə Rusiyanın münasibətlərində soyuqluq yaşanır. Paşinyanın ölkəsinin gələcəyinin Qərbə inteqrasiyada olduğunu bəyan edib buna uyğun siyasət yürütməsi Ermənistan hakimiyyətini Moskvanın hədəfinə çıxardı. Paşinyan hakimiyyətinin timsalında Ermənistana Rusiyanın dili ilə təhdidlər genişləndirildi. Lakin Rusiya Ermənistana təzyiqlərlə Paşinyanı mövqeyindən çəkindirə bilmədiyini gördü və nisbətən yumşaq siyasət taktikasını seçdi. Son aylarda Vladimir Putinin Nikol Paşinyanı bir neçə dəfə qəbul etməsi də bu siyasətin təzahürüdür. Gürcüstana gəldikdə, qatı anti-Rusiya mövqeyində olan siyasi qüvvələri Rusiya xeyli vaxtdır milyarder Bdzina İvanişvilinin əli ilə hakimiyyətdən uzaqlaşdırmağa nail olub. Beləliklə, əslində Rusiya Gürcüstanın Qərblə münasibətlərinin soyuqlaşması və qırılma həddinə yaxınlaşmasına dolayısı ilə nail olmağı bacarıb. Düzdür hələ ki üzdə Rusiyanın Gürcüstanı tamamilə təsir dairəsinə saldığı görünməsə də, alt qatda təsir kifayət var".

**Politoloq dedi ki, indi isə Kreml bütövlükdə Cənubi Qafqazı Qərbin, ABŞ-nin təsir dairəsindən çıxarmağın yollarından biri kimi 3+3 formatını reallaşdırmağa çalışır:** "Düzdür, bu format regional əməkdaşlıq və bölgədə sülh üçün Azərbaycan tərəfindən faydalı format kimi ilk vaxtdan elan edilib, ancaq Azərbaycan 3+3 formatını Qərbə, ABŞ-yə qarşı blok, format kimi görmür. Rusiya isə hiss olunmağa başlayıb ki, 3+3 formatını ABŞ-yə qarşı format olaraq görür. Ən azından onu reallaşdırmağa çalışır. Bir neçə ay öncəyə qədər hədələdiyi, təzyiq etdiyi respublikalara indi əməkdaşlıq formatının vacibliyi barədə tez-tez ən yüksək səviyyələrdə çağırışlar etməsi də buna görədir".

**Politoloq Xəyal Başirov isə bildirdi ki, Sergey Şoyqunun mövqeyi Rusiya dövlətinin mövqeyidir:** "Biz son zamanlar Rusiya tərəfindən digər yüksək ranqlı vəzifəlilərin də 3+3 formatının reallaşdırılması məsələsini qaldırdıqlarını müşahidə etmədəyik. Rusiya sanki narahatdır. Rusiya keçmiş sovet respublikalarına yenə əvvəlki kimi, müttəfiq deyil, tabeliyindəki əyalət prizmasından yanaşma siyasəti yürüdür. Bu siyasətin nəticəsidir ki, Ukrayna ilə müharibə aparır. Nəticədə Rusiya uzun illər təsir dairəsində olan respublikalardakı nüfuzunu itirib. Rusiya bundan narahatdır. Ona görə də nüfuz gücünü bərpa etməyin yeni yollarını arayır. Bu yollardan biri kimi 3+3 formatını görür. Azərbaycan isə istənilən əməkdaşlıq formatını bərabərhüquqlu əməkdaşlıq olaraq görür və üçüncü tərəfə qarşı ittifaq hesab etmir. Rusiya üçün isə əməkdaşlığa bu prizmadan yanaşılmır. Lakin artıq dünya dəyişib. Cənubi Qafqaz regionunda Rusiyanın əlində alət olan əvvəlki imkanlar yoxdur. Reallaşdırmaq istədiyi formatın da həmin imkanları bərpa edə biləcəyi mümkün deyil. Çünki ölkələr, ən azından bir neçəsi bərabərhüquqlu əməkdaşlığın və ABŞ-yə, Qərbə qarşı olmayan formatın tərəfdarıdırlar. 3+3 formatı müstəqil dövlətlərin Rusiyanın təsir dairəsində düşməsini nəzərdə tutmur. Əgər Rusiya bu formatı xüsusilə Cənubi Qafqaz ölkələrini təsir dairəsi altına salmaq platforması kimi nəzərdə tutursa, yanılır, bu cür əməkdaşlıq formatı baş tutmaz. 3+3 formatı Rusiyanın, ümumiyyətlə, hər hansı bir ölkənin mövqe üstünlüyünü istisna edir, hər bir iştirakçı ölkənin bərabərhüquqluluğunu nəzərdə tutur. Azərbaycan bu formatı belə görür və başqa ölkələrə qarşı qarşı olmayan format sayır. Yalnız bu halda 3+3 formatı reallaşa bilər. Azərbaycanın irəli sürdüyü 3+3 formatı 5 ölkənin Kreml saatı ilə işləməsini nəzərdə tutmur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Qərar verdilər: "haylar ölkəsi..." kimi qalırlar

## XİN başçısının açıqlaması göstərir ki, Ermənistan monoetnik dövlət siyasətindən əl çəkmir, əks halda...

**"Hesab edirəm ki, Ermənistanda Ermənistan vətəndaşları, Azərbaycanda Azərbaycan vətəndaşları yaşamalıdır". Xarici işlər naziri Ararat Mirzoyan noyabrın 5-də azərbaycanlıların Ermənistana qayıtması ilə bağlı sualı cavablandırarkən qeyd edib.**



Bu yerdə bir xatırlatma yerinə düşür: Ermənistanın sabiq prezidenti Serjik Sərkisyan də hakimiyyətdə olanda irqi ayrı-seçkilik xarakterli bəyanat verərək demişdi ki, ermənilər və azərbaycanlılar etnik baxımdan uyğunsuzdurlar. Bu səbəbdən də Ermənistan dünyada bəlkə yeganə monoetnik dövlətdir, çünki burada etnik təmizləmələr mütəmadi aparılıb. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Orada heç bir milli azlıq yaşaya bilməz. Onlar ölkə ərazisində bir zamanlar yaşayan bütün millətləri qovublar.

Bakıda minlərlə erməni yaşayır. Ermənistan isə qərbi azərbaycanlıların öz evlərinə qayıtmasına əngəl olur. Bəs proses nə vəd edir? Qarabağa gəlmiş və könüllü getmiş haylarla Qərbi Azərbaycanın yerli sakinləri - hansı ki, deportasiya olunublar - onlar arasında bərabərlik işarəsi qoymaq olarmı? Beynəlxalq hüquq və konvensiyalar nə deyir?

**Deputat, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Pərvanə Vəliyeva** "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, qaçqınların geri qayıdış hüququ beynəlxalq hüquqi nizamın tərkib hissəsidir: "BMT-nin İnsan Hüquqları Komitəsi bu hüququ belə şərh edir: Dövlətlər vətəndaşlarını ölkəyə buraxmamaq üçün çox güclü əsaslara malik olmalıdır. Hətta ölkədən məcburi çıxarılan və ya girişinə qadağa qoyulan şəxslər belə, müəyyən hallarda qayıtmaq hüququna malik ola bilərlər. Geri qayıdış hüququ BMT-nin bir sıra vacib konvensiyalarında öz əksini tapıb. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qeyd olunur: "Hər kəs istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və ona qayıtmaq hüququna malikdir". Bu, beynəlxalq hüquqda qayıtmaq hüququnun əsas ifadəsidir. Hüquqi baxımdan beynəlxalq norma və standartların formalaşmasına əsas yaradır". Xanım deputat həmçinin bildirdi ki, 1966-cı ildə qəbul edilmiş "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda" qeyd olunur ki, "Heç kim öz ölkəsinə daxil olmaq hüququndan əsassız olaraq məhrum edilə bilməz". **P.Vəliyeva ardınca qeyd etdi ki, "öz ölkəsi" ifadəsi yalnız vətəndaşlıqla məhdudlaşmır:** "BMT İnsan Hüquqları Komitəsi bildirir ki, bu, həmçinin daimi sakinləri, qaçqın statusunda olanları, doğulduğu ölkəyə güclü mədəni, ailəvi və hüquqi bağları olan şəxsləri də əhatə edə bilər. "Əsassız məhrumetmə" - Dövlət bu hüququ yalnız çox spesifik hallarda - məsələn, təhlükəsizlik və ya cinayət səbəbiylə - və qanuni əsaslarla məhdudlaşdıra bilər. Bu pakt insanların doğma vətəninə qayıtmaq hüququnu beynəlxalq səviyyədə tanıyan ən güclü hüquqi alətlərdən biridir. Bu hüquq vətəndaşların sərhədlər və siyasi rejimlər dəyişsə belə, vətənlərinə geri dönə bilmələrini təmin etmək üçün nəzərdə tutulub. 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyasının 49-cu maddəsində (deportasiya ilə bağlı) qeyd olunur: "Fərdi və ya kütləvi məcburi köçürmələr, eləcə də deportasiyalar qadağandır..." Burada birbaşa qayıtmaq hüququndan bəhs edilməsə də, bu hüquq zorakı köçürmənin qanunsuz olmasını dəstəkləyir".

**Milli Məclis üzvü digər beynəlxalq sənədlərə də istinad edərək qərbi azərbaycanlıların qayıdışının əngəllənməsini mümkün saymadı:** "BMT Baş Assambleyasının 1948-ci il, 194 saylı Qərarı xüsusilə fələstinli qaçqınlarla bağlı olsa da, beynəlxalq qaçqınlarla bağlı müzakirələrdə tez-tez istinad olunur. Burada deyilir: "Qaçqınlar evlərinə qayıtmaq və qonşuları ilə sülh içində yaşamaq istəyirlərsə, bu onlara ən qısa zamanda təmin edilməlidir". Qaçqınların Statusu haqqında 1951-ci il BMT Konvensiyasında isə birbaşa "qayıtmaq hüququ"ndan bəhs edilmir, lakin qaçqınlar üçün dayanıqlı həll yolları dəstəklənir. Burada könüllü repatriasiya (qayıdış), yerli inteqrasiya və üçüncü ölkəyə köçürülmə kimi müddəalar yer alır".

**Deputat əminliklə qeyd etdi ki, qərbi azərbaycanlıların da qayıdışı iki dövlət arasında münasibətlərin normallaşması çərçivəsində və beynəlxalq mexanizmlərlə həyata keçirilə bilər:** "Bu, həm də bölgədə dayanıqlı sülhün və qarşılıqlı etimadın qurulması üçün mühüm addım ola bilər. Bu insanlar öz torpaqlarından zorla çıxarılıblar və tarixi-mədəni kökləri həmin bölgələrdədir. Ermənistan rəhbərliyi bu qayıdışdan qorxmamalıdır. Əksinə, bu, Ermənistanın hüquqi və humanitar öhdəliklərindən biridir, Ermənistanın sülh prosesi çərçivəsində məsuliyyətli davranış nümayiş etdirməsi üçün vacibdir, siyasi və diplomatik etimadın formalaşmasına xidmət edir".

**P.Vəliyeva xatırlatdı ki, bir müddət öncə, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri ermənistanlı həmkarları ilə görüşmək üçün İrəvana səfər ediblər:** "Görüşün məqsədi sülh prosesinin perspektivləri kontekstində vətəndaş cəmiyyətlərinin fikir mübadiləsi olub. Sülh prosesi ərəfəsində bu cür görüşlərin keçirilməsi sülhün öz praktiki nəticələrini göstərdiyinin daha bir nümunəsidir. Etimad-quruculuq tədbirləri sərhədlərdə artıq tərəflər bundan öncə də irəliyə doğru bir neçə addım atıb. Vətəndaş cəmiyyəti nümayəndələrinin, siyasi ekspertlərin dəyirmi masa müzakirəsi əslində həm də sülhdə ictimai fonun yaranmasına xidmət edir. Yeni dövlətlərin siyasi danışıqları ilə yanaşı, ictimaiyyət təmsilçilərinin də real vəziyyəti qiymətləndirməsi və əməkdaşlıq imkanlarını dəyərləndirməsi iki ölkə arasında etimad-quruculuğuna dəstək baxımından çox əhəmiyyətlidir. Vətəndaş cəmiyyətini təmsil edən Qərbi Azərbaycan icması ilə də bu cür görüşün keçirilməsi, onların arzu və istəklərinin dinlənilməsi etimad-quruculuğuna dəstək ola bilər. Nəticədə bu da regionda davamlı və dayanıqlı sülhə nail olunmasına xidmət edər".

**Deputat dövlət başçımızın digər fikrinə də diqqət çəkdi:** "Cənab Prezident bir müsahibəsində qeyd edir ki, "Sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu, həm də ictimai konsensusdur". Bu ifadə ilə o, sülhün təkcə rəsmi sənədlər və ya siyasi razılaşmalarla məhdudlaşmadığını göstərir. Sülh yalnız sənədlərdə yox, insanların düşüncə və davranışlarında, cəmiyyətlər arasındakı münasibətlərdə olmalıdır. İctimai konsensus dedikdə, cəmiyyətin böyük əksəriyyətinin sülhə dəstək verməsi, qərəzli düşüncələrdən uzaqlaşması nəzərdə tutulur. Prezident qeyd edir ki, bu məqsəd üçün isə ictimai fon, ünsiyyət lazımdır. Azərbaycan çoxmillətli dövlətdir və əsrlər boyu müxtəlif xalqların nümayəndələri birlikdə, sülh şəraitində yaşayırlar və biz bundan qürur duyuruq. Biz müxtəlif xalqların ənənələrinin qorunub saxlanılmasını təşviq edirik".

**P.Vəliyeva bildirdi ki, Prezidentin AMEA-dakı çıxışında diqqət çəkdiyi mühüm məqamlardan biri də tarixi xəritələrin əhəmiyyətidir:** "O qeyd edir ki, çar Rusiyası dövründə tərtib edilmiş xəritələrdə bu gün Ermənistan adlanan ərazilərdəki toponimlərin böyük əksəriyyəti Azərbaycan mənşəlidir. Bu, həmin torpaqlarda azərbaycanlıların tarixi varlığını və mədəni izlərini sübut edən faktlardandır. Düşünürəm ki, Azərbaycan gənclərinin də bu istiqamətdə üzərinə məsuliyyət düşür. Onların öz köklərini daha yaxşı tanıması həm də beynəlxalq ictimaiyyətin ölkəmizin tarixi reallıqlarını doğru anlaması üçün vacibdir".

Beləliklə, beynəlxalq konvensiyalar da Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın qayıdışına "yaşıl işıq" yandırır. Ermənistan hakimiyyəti Prezident İlham Əliyevin "ev tapşırıqları"nı icra etməlidir, o cümlədən Qərbi Azərbaycanın əsl sahiblərinin ləyaqətli qayıdışı ilə bağlı. Əks halda...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# İrəvanı yenə cəzalandırmaq çağırışı

## Qüdrət Həsənquliyev: "Azərbaycan güc tətbiq etməklə dəhlizin keçəcəyi ərazini təmizləməli və sonra..."

**Baş nazir Nikol Paşinyan Rusiya taxılını daşıyan qatarın Azərbaycan və Gürcüstandan keçməklə Ermənistana gəlməsinə münasibət bildirib. Paşinyan bunu mühüm və tarixi hadisə adlandırıb.**

"Ermənistanın Marqaradan Kornidzora və əks istiqamətdə - Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana yük qatarlarının tranzitini təmin etməyə hazır olduğunu bir daha bildirirəm. Yarım saat ərzində hər iki tərəfdən bir qatar keçid məntəqəsinə gələ bilər və biz keçidi idarə etməyə tam hazırıq", - Paşinyan deyib.

"Azərbaycan Türkiyə, Rusiya və ABŞ ilə ciddi danışıqlar aparmalıdır. Biz həyati əhəmiyyət daşıyan milli maraqlarımızı Ermənistanın daxili siyasətinə bağlamamalıyıq". Bunu isə Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri, millət vəkili Qüdrət Həsənquliyev belə deyib.

Deputatın dediyinə görə, Ermənistan dəhlizin açılması ilə bağlı təcili qərar qəbul etməsə, Azərbaycan güc tətbiq etməklə dəhlizin keçəcəyi ərazini təmizləməli və sonra ciddi təminat altında 10 noyabr 2020-ci il, yaxud 8 avqust 2025-ci razılaşmalarına uyğun olaraq, ya Rusiyanın, ya da ABŞ-nin nəzarətinə verməlidir: "Ermənistan özünə sərf edən formada qonşularla kommunikasiyaların açılmasına nail olmağa çalışır, amma Naxçıvana yolun açılması istiqamətində gecə-gündüz danışsa da, real addımlar atmağa tələsmir. Vaşinqton razılaşmasından sonra yolun tikintisinə tezliklə başlanılacağına ümidlər yaransa da, indi hər keçən gün buna daha çox əmin oluruq ki, onlar Vaşinqton bəyannaməsindən sonra çox arxayınlaşıblar. Azərbaycan Ermənistanın Naxçıvana yolun təcili tikintisinə başlanılması və yaxın gələcəkdə konstitusiyalarını dəyişəcəkləri öhdəliyi ilə sülh sazişinin imzalanmasını təklif edə bilər. Qələbə günündən 5 il keçsə də Ermənistan bu istiqamətdə hələ heç bir addım atmayıb".

# Ölkədə "Məşədi İbad" təhlükəsi

## 50 yaşlı bir insanın azyaşlı bir qızı "evlənmək məqsədilə" qaçırması təkcə hüquq pozuntusu deyil...

**Balakəndə 50 yaşlı Samir Rəhimovun 17 yaşlı qızı evlənmək məqsədilə qaçırması faktı bir daha göstərdi ki, erkən nikah və azyaşlıların hüquqlarının pozulması problemi hələ də aktual qalır. Bu, artıq tək bir ailənin yox, cəmiyyətin problemidir.**



Azyaşlını evlənmək məqsədilə qaçıran şəxsin 50 yaşlı bir kişi olması isə xüsusi ikrah hissi oyadır. Bu artıq 17 yaşlı uşağın etdiyi səhv deyil. Bu, 50 yaşlı, bəzən hətta ağsaqqal adlandırdığımız bir fərdin ağılsızlığı, məsuliyyətsizliyidir... Uşaqları və gəncləri maarifləndirməli olduğumuz bir zamanda, görünür, 50 yaşlı insanların da maarifləndirilməsinə ehtiyac var...

Son illər ölkəmizdə qadın və uşaq hüquqlarının qorunması istiqamətində xeyli iş görülsə də, təəssüf ki, bəzi hallarda ənənəvi düşüncə tərzi, sosial laqeydlik və hüquqi savadsızlıq bu səyləri kölgədə qoyur. Balakəndə 50 yaşlı kişinin 17 yaşlı qızı evlənmək məqsədilə qaçırması faktı bir daha göstərdi ki, erkən nikah və azyaşlıların hüquqlarının pozulması təkcə fərdi hadisə deyil, cəmiyyətin dərinliklərinə kök salmış sosial və mənəvi böhranın təzahürüdür. Bu kimi hallar cəmiyyətin hüquqi mədəniyyət səviyyəsinin, ailə institutunun və mənəvi dəyərlərin hansı vəziyyətdə olduğunu acı şəkildə göstərir. Uşaqların və gənclərin hüquqlarının müdafiə etmək yalnız dövlətin deyil, hər bir fərdin borcudur. Lakin bəzən elə görünür ki, biz "uşaqları qorumaq" dedikdə yalnız onlara nəsihət verməklə kifayətlənirik. Halbuki təhlükə çox zaman böyüklərin məsuliyyətsizliyindən yaranır. 50 yaşlı bir insanın azyaşlı bir qızı "evlənmək məqsədilə" qaçırması təkcə hüquq pozuntusu deyil. Cəmiyyət olaraq biz bu cür hadisələrə "ayıbdır" və ya "biabırçılıqdır" kimi reaksiya verməklə kifayətlənməməli, problemin kökündə duran səbəbləri anlamağa və aradan qaldırmağa çalışmalıyıq.



Kəndlərdə, bölgələrdə, bəzən hətta şəhərlərdə belə qız uşaqlarının təhsildən uzaqlaşdırılması, ərə verilməsi və ya "qaçırılması" faktlarına rast gəlinir. Bununla da bir insanın uşaqlığı, təhsili və gələcəyi əlindən alınır. Erkən nikah təkcə bir ailənin faciəsi deyil, bütün cəmiyyətin inkişafına vurulan zərbədir. Çünki hər bir erkən nikah əslində bir qızın təhsilini, arzularını və potensialını məhv edir. Bu hadisə cəmiyyətin üzərinə ciddi məsuliyyət qoyur. Artıq təkcə uşaqları deyil, böyükləri də maarifləndirməyin zamanı çatıb. Çünki bəzi "yetkin" insanların düşüncə tərzi və davranışları təəssüf ki, cəmiyyət üçün daha təhlükəlidir. Qız uşaqlarını qorumaq təkcə onların ailəsinin deyil, məktəblərin, ictimai təşkilatların, medianın və dövlətin ortaq vəzifəsidir. Bu məsələni yalnız cinayət hüququ ilə deyil, həm də mənəvi, sosial və psixoloji səviyyədə həll etmək lazımdır. Əks halda, biz hər dəfə yeni bir "Məşədi İbad" hadisəsi ilə üzləşəcəyik, bu dəfə səhnədə yox, həyatın özündə.

**Mövzu ilə bağlı Tribuna.info-ya danışan Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Fədainin sözlərinə görə, bəzi insanların mənəvi dəyərləri və psixoloji sağlamlığı ciddi şəkildə zədələnib:** "Təəssüf ki, belə hallar artıq fərdi problem yox, sosial problemə çevrilib. Biz bəzən maarifləndirməni yalnız uşaqlarla və gənclərlə məhdudlaşdırırıq. Halbuki cəmiyyətdə dəyərləri deqradasiyaya uğramış, psixoloji problemi olan yetkin insanlar var və bu şəxslər başqaları üçün təhlükə yaradır. Bu reallığı görməliyik. Bu kimi hadisələr bir daha göstərir ki, biz qızlarımızı, övladlarımızı daha ciddi şəkildə qorumalıyıq. Onlara yalnız "ehtiyatlı ol" deməklə kifayətlənməməli, özlərini necə qorumağı, "yox" deməyi, təhlükəni tanımağı və kömək istəməyi öyrətməliyik. Bu, valideynlərin, məktəblərin, ictimai qurumların və medianın birgə məsuliyyətidir".

**İnsan hüquqları üzrə ekspert, vəkil Roman Qaraşov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Balakən rayonunda 50 yaşlı Samir Rəhimovun 17 yaşlı qızı evlənmək məqsədilə qaçırması faktı bir daha göstərir ki, erkən nikah və azyaşlıların hüquqlarının pozulması problemi hüquqi-normativ tənzimləmələrə baxmayaraq, hələ də aktual sosial çağırış olaraq qalır: "Bu hadisə fərdi cinayət tərkibli əməldən daha çox, cəmiyyətin hüquqi mədəniyyət səviyyəsinin və sosial institutların effektiv fəaliyyət mexanizmlərinin yetərsizliyinin göstəricisidir. Cinayət Məcəlləsinin 144-cü maddəsinə əsasən, adam oğurluğu, xüsusilə yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə ağır cinayət tərkibi kimi qiymətləndirilir və 10 ildən 15 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Lakin hüquqi sanksiyanın mövcudluğu təkbaşına preventiv təsir göstərə bilmir. Qanunun preventiv funksiyası yalnız o halda reallaşa bilər ki, ictimai şüurda və hüquqi davranış mədəniyyətində belə əməllərə qarşı dərin mənfi münasibət formalaşsın. Problemin davamlılığında sosial-psixoloji amillər mühüm rol oynayır. Patriarxal dəyərlərin dominantlığı, gender stereotipləri və hüquqi maarifləmə səviyyəsinin aşağı olması qız uşaqlarının təhsil, fərdi inkişaf hüququnu və iradə ifadə azadlığını məhdudlaşdırır. Beynəlxalq hüquqa görə, yetkinlik yaşına çatmayan şəxsin evliliyə "razılığı" hüquqi qüvvəyə malik hesab edilmir, çünki bu, psixoloji və sosial asılılıq şəraitində formalaşmış iradə pozuntusu kimi qiymətləndirilir. Bu kimi halların qarşısının alınması üçün yalnız cəza tədbirləri deyil, həm də kompleks institusional mexanizmlər sosial xidmətlər, psixoloji dəstək proqramları və maarifləndirici fəaliyyətlər paralel şəkildə tətbiq olunmalıdır. Bu, həm hüququn qoruyucu funksiyasını gücləndirir, həm də cəmiyyətin hüquqi şüurunun formalaşmasına xidmət edir".

❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**

# Alimlərə çətin ev tapşırığı

## Süni intellektin öhdəsindən gələ biləcəklərmi?



**AMEA-nın 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyevin alimlər qarşısında qoyduğu vəzifələrdən biri də süni intellektin inkişafı və elmi tədqiqatlarda onun tətbiqi oldu.**

Bəs Azərbaycan alimləri bu prosesdə fəal iştirak edə bilərlərmi?

**Dosent İlham Əhmədov** mövzu ilə bağlı deyib ki, süni intellekt (Sİ) XXI əsrdə elmi tədqiqatların metodologiyasını, miqyasını və sürətini əsaslı şəkildə dəyişdirən ən mühüm texnoloji inqilablardan biridir. Əgər bir vaxtlar elmi bilik fərdi müşahidə, intuisiya və empirik təcrübəyə əsaslanırdısa, bu gün elmin inkişafı alqoritmik düşüncə, böyük verilənlər və hesablama modelləri ilə sıx vəhdətdədir. Süni intellekt artıq tədqiqatçının yardımçısı olmaqla kifayətlənmir - o, elmi kəşfin birbaşa iştirakçısına çevrilib: "Birincisi, elmi tədqiqatların yeni mərhələsi: idrak və hesablama sinerjisidir. Ənənəvi elmi metodda üç əsas mərhələ mövcud idi: hipotezin irəli sürülməsi, təcrübə və məlumat toplanması, nəticələrin təhlili və ümumiləşdirilməsi. Süni intellekt bu ardıcıllığı köklü şəkildə dəyişir. Artıq hipotezlər avtomatik generasiya olunur, milyonlarla mənbədən toplanan məlumatlar eyni anda emal edilir, nəticələr isə hesablama modelləri vasitəsilə proqnozlaşdırılır. Nəticədə elm yalnız insan təhlili ilə deyil, həm də hesablama idrakı ilə inkişaf edir. İkincisi, süni intellektin elmi tədqiqatlarda əsas tətbiq istiqamətləridir:

**- Böyük verilənlərin analizi.** Müasir elmdə məlumat axını misilsiz dərəcədə artıb - genom tədqiqatlarından iqlim modellərinə qədər. Süni intellekt bu məlumat kütləsini strukturlaşdırır, nümunələri aşkarlayır və yeni hipotezlər təklif edir. Məsələn, NASA-nın Sİ sistemləri teleskoplardan gələn milyonlarla şəkli təhlil edərək, insan gözünün fərqinə vara bilmədiyi planetləri müəyyənləşdirir.

**- Elmi ədəbiyyatın avtomatik təhlili.** Sİ alqoritmləri artıq yüz minlərlə elmi məqaləni oxuyaraq onları mövzular üzrə qruplaşdırır, yeni tədqiqat istiqamətlərini müəyyənləşdirir, təkrarlanan və ya zəif nəticələri filtrasiya edir. "Semantic Scholar" kimi platformalar bu sahədə önəmli nümunədir.

**- Modelləşdirmə və simulyasiya.** Fizika, kimya, biologiya və iqtisadiyyat sahələrində Sİ real eksperimentləri rəqəmsal mühitdə təkrarlayır. Bu yanaşma həm maliyyə xərclərini azaldır, həm də riskləri minimuma endirir. COVİD-19 dövründə tətbiq olunan modellər virusun yayılma trayektoriyasını proqnozlaşdıraraq, siyasət qərarlarına ciddi təsir göstərmişdi.

**- Biotibbi və genetik tədqiqatlar.** Süni intellekt biotibbi araşdırmalarda inqilabi nəticələr verir: DNT ardıcıllığını oxuyur, xəstəlik risklərini proqnozlaşdırır, yeni dərman formulaları təklif edir. DeepMind şirkətinin "AlphaFold" sistemi zülal strukturlarının proqnozlaşdırılmasında uzun illərdir mövcud olan elmi problemi həll etməklə bu sahədə dönüş nöqtəsi yaradıb.

**- Elmi yaradıcılıq və ideya sintezi.** Müasir alqoritmlər artıq yalnız məlumat emal etmir, həm də yeni nəzəri modellər yaradır. Onlar müxtəlif elm sahələrindən bilikləri birləşdirərək interdisiplinar ideyalar formalaşdırır. MIT və Stanford universitetlərində yaradılan Sİ sistemləri bunun real nümunəsidir - onlar fizika ilə kimya qanunları arasında yeni əlaqələri aşkarlayıb".

**Üçüncü istiqamət üzrə danışan dosent deyib ki, Sİ elmin metodologiyasını transformasiya edir:** "Süni intellektin tətbiqi elmin strukturunu dəyişir. Əgər əvvəllər alimlər uzunmüddətli müşahidə və təcrübələr nəticəsində hipotezlər irəli sürürdülərsə, indi Sİ milyonlarla məlumat üzərində saniyələr ərzində hipotez yarada bilir. Təcrübələr simulyasiya şəklində keçirilir, nəticələr obyektiv və alqoritmik formada qiymətləndirilir. Beləliklə, bilik istehsalı xətti ardıcıllıqdan çıxaraq şəbəkəvi və əlaqəli sistemə çevrilir. Dördüncü isə süni intellektin elmi tədqiqatlarda tətbiqinin üstünlükləridir:

* Sürət və səmərəlilik: məlumatların emalı və təhlili saniyələr ərzində baş verir.

* Dərin analitika: insan tərəfindən fərq edilməyən korrelyasiyalar aşkarlanır.

* Yeni ideyaların yaranması: fərqli sahələrdən biliklər sintez olunur.

* Subyektivliyin azalması: səhv ehtimalı və insan qərəzi minimuma endirilir.

* Resurs qənaəti: bahalı və uzunmüddətli təcrübələr rəqəmsal modellərlə əvəz olunur.

5. Risklər və etik çağırışlar.

Süni intellektin elmə inteqrasiyası ilə bağlı bir sıra problemlər də aktuallaşır. Əsas məsələlər bunlardır: elmi məsuliyyətin paylaşılması ( alim, yoxsa alqoritm məsuliyyət daşıyır?), plagiat və orijinallıq (Sİ tərəfindən yaradılan biliklərin müəllifliyi kimə məxsusdur?), "qara qutu" problem (alqoritmin qərar mexanizmi şəffaf deyil), məlumatın mərkəzləşməsi (böyük texnoloji şirkətlərin elmi verilənlər üzərində nəzarəti ədalətli rəqabəti məhdudlaşdıra bilər).

Bu səbəblərdən, süni intellektin elmdə istifadəsi etik prinsiplər, şəffaflıq və intellektual mülkiyyət normaları ilə tənzimlənməlidir.

Nəhayət sonuncusu, elmin gələcəyi: insan və süni intellekt əməkdaşlığıdır. Süni intellekt insanı əvəz etmək üçün deyil, onun idrak imkanlarını genişləndirmək üçün yaradılıb. Ən səmərəli model "insan + Sİ" sinerjisidir: alim konseptual düşüncə və yaradıcılıqla məşğul olur, süni intellekt isə analitik və hesablama işlərini icra edir. Beləliklə, elmi fəaliyyət yeni mərhələyə-"ağıl əməkdaşlığı" mərhələsinə daxil olur.

Gələcəyin laboratoriyası yalnız cihazlar və reagentlərdən ibarət olmayacaq; orada həm də alqoritmlər, məlumat ekosistemləri və intellektual analitik sistemlər mühüm rol oynayacaq. Bu sistemləri mənimsəyənlər bilik istehsalında real elmi suverenliyə nail olacaqlar".

❑ **Afaq MİRAYİQ,
Musavat.com**

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025

# Araikin cinayətləri təsdiqləndi

## Qondarma "prezident" Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərdə və terror aktlarında iştirak edib

**Noyabrın 6-da Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilir.**



Məhkəmə iclasında təqsirləndirilən şəxslərin ayrı-ayrılıqda cinayətkar birliyin tərkibindəki rollarını təsdiq edən sənədlərin və sübutların elan olunmasına başlanılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev sənədlərin və sübutların təqsirləndirilən şəxs Harutyunyan Araik Vladimiri (Vladimiroviç) ilə bağlı olan hissəsini diqqətə çatdırıb. Bildirilib ki, təqsirləndirilən Araik Harutyunyanın 1991-ci ilin dekabr ayında cinayətkar birliyə qoşulmaqla 20 sentyabr 2023-cü ilədək olan müddət ərzində cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları icra etməklə cinayətkar birlik tərəfindən törədilmiş bütün cinayətlərdə bilavasitə və dolayı yolla iştirak etməsi məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiqlənib.

Diqqətə çatdırılıb ki, tədqiq edilmiş materiallardan birinə əsasən, Araik Harutyunyanın 1990-cı illərdə Azərbaycana qarşı törədilən cinayətlərdə qardaşı ilə birlikdə iştirak etdiyi, habelə Kərkicahan qəsəbəsində, Xocalıda gedən döyüşlərə qatılması təsdiqini tapıb.

Qeyd edilənlər onun sıravi iştirakçı olmadığını, düşmən ordusunun döyüş qabiliyyətinin təmin edilməsində, silahlı dəstələrin fasiləsiz təchizatında və onların qanunsuz silahlı əməliyyatlar aparmaq imkanlarının saxlanılmasında birbaşa rol oynadığını sübut edir.

Qeyd olunub ki, məhkəmədə tədqiq edilmiş videomaterial təqsirləndirilən şəxsin təkcə Azərbaycanın Silahlı Qüvvələrinin işğalı altında olan ərazilərə səfər etmədiyini, həm də döyüş mövqelərinin yoxlanılması, oradakı qüvvələrin potensialının öyrənilməsi və hərbi əməliyyatların davamlılığının təmin olunmasına yönələn fəaliyyətlərdə bilavasitə iştirak etdiyini sübuta yetirir. Bu isə onun Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı aparılan silahlı təcavüzün informasiya, təşkilati və kadr təminatı istiqamətində mühüm rol oynadığını bir daha təsdiqləyir.

Bildirilib ki, o, Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərin, terror aktlarının törədilməsində iştirak etməklə yanaşı, qeyd edilən əməllərini sosial şəbəkələr vasitəsilə dünyaya çatdırmaqdan da çəkinməyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

❑ "Yeni Müsavat"

# Dələduz maklerə hökm oxundu

## 139 min manata yaxın pul vəsaitini ələ keçirənlər məhkəmə istintaqı zamanı dəymiş ziyandan 32 min manatı ödəyiblər

**Bakıda ev satmaq adı ilə vətəndaşlara qarşı dələduzluq etməkdə təqsirləndirilən Xanlar Cəfərov, Oqtay Adışov və Xəzər Əliyevin yekun məhkəmə prosesi keçirilib.**



APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.

O, Xəzər Əliyevin və Xanlar Cəfərovun 3 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında maddi və rəhbər vəzifə tutmaq hüququndan məhrum edilmələrini istəyib. Prokuror Xəzər Əliyevə 7 il 6 ay, Xanlar Cəfərovun əvvəlki cəzası da toplanılmaqla 11 il, Oqtay Adışovun isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini təklif edib. O, zərəçəkənlərə dəymiş ziyanın təqsirləndirilən şəxslər tərəfindən tam ödənilməsinə qərar verilməsini də istəyib.

Təqsirləndirilən şəxslərin vəkilləri onlara bəraət hökmünün çıxarılmasını xahiş edib.

Məhkəmədə hökm oxunub. Hökmə əsasən, Xəzər Əliyev 2 il dövlət və yerli özünü idarə orqanlarında maddi və rəhbər vəzifə tutmaq hüququndan məhrum edilməklə 6 il 3 ay müddətinə, Xanlar Cəfərov isə 3 il müddətinə dövlət və yerli özünü idarə orqanlarında maddi və rəhbər vəzifə tutmaq hüququndan məhrum edilməklə 10 il müddətinə azadlıqdan məhrum edilibləR. Onlar cəzalarını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkəcəklər.

Oqtay Adışova 1 il 3 ay müddətinə azadlığın məhdudlaşdırılması cəzası təyin edilib.

Zərərçəkənlər tərəfindən verilmiş mülki iddia qismən təmin edilib.

Qeyd edək ki, ittihama görə, hər üç şəxs əlbir olaraq ev satmaq adı ilə 3 nəfər zərərçəkənin ümumilikdə 139 min manata yaxın pul vəsaitini dələduzluq yolu ilə ələ keçiriblər. Məhkəmə istintaqı zamanı dəymiş ziyandan 32 min manatı zərərçəkənlərə ödənilib.

Xanlar Cəfərov, Xəzər Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə, Oqtay Adışova qarşı isə Cinayət Məcəlləsinin 178.2.1-ci (dələduzluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.4-cü (dələduzluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə yekun ittiham olunub.

Xanlar Cəfərov "Avro Qrand" MMC-nin 2014-cü ildən 2019-cu ilədək direktoru vəzifəsində işləyib.

O, bundan əvvəl dəfələrlə məhkum olunub. X.Cəfərov sonuncu dəfə ötən il Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 9 il müddətinə azadlıqdan məhrum edilib.



# "Tərtər işi": general Orucov həbsdə qaldı

**"Tərtər işi" ilə bağlı təqsirləndirilən general-mayor Bəkir Orucov və digər şəxslər barəsində olan hökmdən verilən kasasiya şikayəti təmin edilməyib.**

"Report" xəbər verir ki, bu barədə qərar Ali Məhkəmədə hakim İlqar Qılıcovun sədrliyi ilə keçirilən prosesdə verilib.

Qərara əsasən, birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən Bəkir Orucov və digərləri ötən il cinayət məsuliyyətinə cəlb ediliblər.

Onlara qarşı Cinayət Məcəlləsinin 126.3 (qəsdən sağlamlığa ağır zərər vurma, ölümə səbəb olduqda), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə, ölümə səbəb olduqda), 293.2 (dövlət orqanının vəzifəli şəxsi tərəfindən işgəncə vermə), 329 (tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər), 341.2.1 və 341.2.3 (bir qrup şəxs tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və ya vəzifə səlahiyyətlərini aşma bir qrup şəxs tərəfindən ağır nəticələrə səbəb olduqda) maddələri İntiqam Məmmədova isə əlavə olaraq 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Bəkir Orucov 9 il 6 ay, Ziya Kazımov və Ülvi Rəşidov 9 il 6 ay, İntiqam Məmmədov və Rahib Məmmədov isə 6 il 6 ay azadlıqdan məhrum edilib.

Daha sonra Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə B.Orucovun cəzası 6 il 6 aya endirilib.



# Din xadimini öldürmək istəyən şəxs kimdir?

**Azərbaycanda din xadiminə sui-qəsd etməyə hazırlıq görməkdə ittiham olunan Nərminə Şabanova, Elvin Əhmədov və Naib İsmiyevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

"Report" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Naib İsmiyevin vəkili vəsatətlə çıxış edərək işin ağırlığı ilə əlaqədar hazırlıq iclasının təxirə salınmasını xahiş edib.

Onun xahişi məhkəmə tərəfindən nəzərə alınıb və hazırlıq iclasının davamı noyabrın 20-də olacaq.

Qeyd edək ki, DTX tərəfindən saxlanılan Nərminə Şabanova və Naib İsmiyev AR Cinayət Məcəlləsinin 28 (cinayətə hazırlıq), 277-ci (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə) maddələri ilə, Elvin Əhmədov isə 228.2.1-ci (qanunsuz olaraq silah gəzdirmə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunurlar.

İttihama görə, təqsirləndirilən şəxslər din xadiminə qarşı sui-qəsd hazırlamaqda günahkar bilinirlər.

DTX-nin İstintaq baş idarəsində başlanan cinayət işi üzrə təqsirləndirilən şəxslər məsuliyyətə cəlb olunublar. Onların hər biri barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025




# Gürcüstan ermənilərə görə milyardlar itirəcək

## Ermənistan, Azərbaycan və Türkiyə arasında yeni marşrutların açılmasından sonra Tiflis tranzit yüklərin 20 faizini itirmək riski ilə üzləşəcək

**Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması, nəqliyyat əlaqələrinin bərpası daim Gürcüstanda həssas yanaşılan məsələ olub. Bu, təbiidir, çünki müstəqillik əldə edildikdən sonra keçən bütün dövr ərzində Gürcüstan Azərbaycan və onun üzərindən daşınan yüklərin, məhsulların Avropaya çıxışı üçün tək qapı rolunu oynayıb. Belə inhisarçı mövqe Tiflisə Azərbaycanın strateji neft-qaz və ticarət arteriyalarının öz ərazisindən keçməsi müqabilində istədiyi şərtləri diktə etməyə, özü üçün ən əlverişli şərtlərə nail olmağa imkan verib.**

İndi isə ortaya Ermənistanın timsalında yeni oyunçu çıxır. Aydın məsələdir ki, bu, Gürcüstan üçün iqtisadi baxımdan heç də arzuolunan mənzərə deyil. Artıq Azərbaycan üzərindən ilk yüklərin Ermənistana çatdırılmasına başlanıb. Gürcüstan dəmiryol sistemindən də istifadə ilə baş tutan bu prosesin geridönməz xarakter alacağı açıq görünür. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan öz ərazisi ilə tranzit keçəcək yüklərin Türkiyə və Avropaya çatdırılması üçün alternativ əldə edəcək. Bu isə Tiflisin istədiyi şərtləri əldə etməsi baxımından əlverişsiz mövqeyə düşməsi, hətta yükləri cəlb etmək üçün mühüm güzəştlərə getməsinin tələb olunacağı deməkdir. Bu, regionda həyata keçirilməkdə olan ən böyük nəqliyyat layihəsi olan Orta dəhlizlə bağlı da keçərli perspektivdir.

Əksər analitiklər Azərbaycanın Ermənistan ərazisindən Türkiyəyə yol əldə etməsi ilə Gürcüstan ərazisindən keçəcək yüklərin həcmi və nəqliyyat-logistika gəlirlərində azalmanın olmasını qaçılmaz hesab edirlər. Bu zaman söhbət, əlbəttə, hazırda daşınan həcmlərin azalması deyil, potensial hesablanan həcmlərdə azalma nəzərdə tutulur. Çünki Ermənistan üzərindən keçəcək dəhlizin işə salınması yaxınmüddətli dövrdə real görünmür, bunun üçün ən azı 2-3 il vaxt tələb olunur.

Buna baxmayaraq, artıq Gürcüstan ekspertləri ölkənin yeni logistika marşrutunun açılmasından mümkün itkilərini hesablamağa başlayıblar. Gürcüstan Nəqliyyat Dəhlizlərinin Tədqiqi Mərkəzinin direktoru Paata Tsaqareişvilinin fikrincə, "Gürcüstan Ermənistan, Azərbaycan və Türkiyə arasında yeni marşrutların açılmasından sonra tranzit yüklərinin 20 faizini itirmək riski ilə üzləşir". O, İrəvanda keçirilən "Orbeli Forum 2025: Sülh və çoxtərəfli əməkdaşlığın qurulması" beynəlxalq konfransı çərçivəsində "Sputnik Ermənistan"a müsahibəsində deyib ki, regionda nəqliyyat əlaqələri açılsa, ilk növbədə avtomobil yolu marşrutları açılacaq. Dəmir yolu xəttinin işə salınması təxminən 5-6 il çəkəcək, çünki yolun Ermənistandan keçəcək hissəsi naməlum vəziyyətdə qalır: "Region ölkələri bu vaxtdan logistika marşrutlarını təhlil etmək və yenidən strukturlaşdırmaq üçün istifadə edirlər. Ermənistanla Azərbaycan arasında yeni marşrutlar qaçılmaz olaraq Gürcüstan vasitəsilə yükdaşımalarını azaldacaq - itkilər ildə təxminən 1,5-2 milyon ton təşkil edə bilər".

Tsaqareişvilinin hesablamalarına görə, itkilər Orta dəhliz üzrə Gürcüstan üzərindən reallaşan tranzit daşımalarının 15-20 faizinə bərabərdir. Gürcüstan ərazisindən ildə təxminən 18-20 milyon ton yük daşınır.

Ekspert vurğulayıb ki, Gürcüstan rəqabət qabiliyyətini qorumaq üçün indi addımlar atmalıdır: tarif siyasətinə yenidən baxmalı, infrastrukturu inkişaf etdirməli və yükdaşıyanları stimullaşdırmalıdır. Bundan əlavə, Gürcüstan hazırda Türkiyədən öz ərazisi ilə Ermənistana tranzit keçən yükdaşımalarının bir hissəsini itirə bilər. Hazırda yük dəniz yolu ilə Gürcüstana çatdırılır, Tiflis terminalında yenidən dəmiryolu və ya avtomobillərə yüklənir, sonra isə Ermənistana göndərilir. Ermənistan-Türkiyə sərhədi açılandan sonra bu axın Gürcüstandan yan keçməklə birbaşa gedəcək.

Tsaqareişvili həmçinin Mərkəzi Asiyanın potensialına diqqət çəkib. Təkcə Qazaxıstan 2023-cü ildə 132 milyon ton yük daşıyıb, lakin bu həcmin yalnız 2 faizi Gürcüstana çatıb. Ekspertin fikrincə, həm Gürcüstan, həm də Ermənistan bu axınları cəlb etmək üçün daha fəal rəqabət aparmalıdır.

Ekspert qiymətləndirmələrinə görə, İrəvan mövcud Kayan-Hrazdan dəmir yolu xətti vasitəsilə Orta dəhlizə qoşula bilər. Bu halda Çindən gələn yüklər Xəzər dənizi vasitəsilə Azərbaycana, oradan Ermənistana və daha sonra Axurik vasitəsilə Türkiyəyə çatdırılacaq.

Sünik bölgəsindəki dəmir yolu bərpa olunacağı təqdirdə, Transxəzər Nəqliyyat Dəhlizinin (TMTC) Gürcüstan və İran istiqamətində ayrıca bir qolu formalaşacaq.

Gürcüstan hakimiyyəti bu təhlükəni görür və Orta dəhliz layihəsi çərçivəsində fəaliyyətlərini aktivləşdirir. Ölkənin baş naziri İrakli Kobaxidze bu günlərdə Çinə gedərək həm rəsmi Pekin, həm Qazaxıstan, həm də Özbəkistanla çoxsaylı görüşlər keçirib.

**Şanxayda keçirilən Çin Beynəlxalq İdxal Sərgisində baş nazir bəyan edib ki, Gürcüstan Orta dəhliz vasitəsilə Çin və Avropa arasında nəqliyyat axınlarını artırmaq üçün əməkdaşlığı davam etdirməyə hazırdır:** "Çin və Gürcüstan arasında Orta dəhliz boyunca daşınan konteynerlərin sayı 2025-ci ilin yanvar-avqust ayları ərzində 71faiz artıb. Bundan əlavə, 2024-cü ildə daşınan yüklərin həcmi əvvəlki ilə nisbətən 15 dəfə çox olub. Gürcüstan bir daha Orta Dəhliz vasitəsilə Çin və Avropa arasında nəqliyyat axınlarını artırmaq üçün əməkdaşlığı davam etdirməyə hazır olduğunu təsdiqləyir".

Onun sözlərinə görə, Gürcüstan getdikcə Avropa ilə Asiya arasında birləşdirici vasitə kimi strateji rolunu artırır: "Anakliya dərin su limanının tikintisi, Şərq-Qərb avtomobil yolu, Qara dəniz sualtı kabeli, yeni Tiflis Beynəlxalq Hava Limanı layihəsi və Bakı-Tiflis-Qars dəmir yolu kimi böyük infrastruktur layihələri ölkəni Çin və Avropa arasında əsas ticarət və nəqliyyat marşrutuna çevirir".

Proseslərin gedişindən görünür ki, yaxın illərdə Gürcüstanla Ermənistan arasında Asiyadan Xəzər dənizi və Azərbaycan üzərindən göndəriləcək yükləri öz ərazilərinə cəlb etmək uğrunda ciddi rəqabət formalaşacaq. Lakin bu rəqabətin ölkələr arasında münasibətlərə mənfi mənada yansıyacaq qədər kəskinləşməsi ehtimalı yüksək deyil. Çünki Ermənistan Şimal-Cənub Nəqliyyat Dəhlizi çərçivəsində İran üzərindən cəlb etməyi planlaşdırdığı yükləri məhz Gürcüstan vasitəsilə Avropaya ötürə biləcək. Bu sahədə İrəvan həm də Azərbaycanla rəqabətdə olacaq, çünki Şimal-Cənub dəhlizi layihəsinin aktiv iştirakçısı olan Bakı İran üzərindən ötürülən yüklər üçün ən əlverişli şərtləri təklif edəcək imkanadır, artıq bu istiqamət üzrə daşınan yüklər ildən-ilə artır.

Asiyadan - həm Çin, həm də Hindistandan yüklərin Avropaya çatdırılması baxımından Cənubi Qafqazın 3 ölkəsi arasında ən əlverişsiz şərtlərə məhz Ermənistan malikdir. Son 30 ildə regionda icra olunan bütün regional və beynəlxalq layihələrdən kənarda qalan İrəvanın mövcud infrastrukturu çox cüzi həcmdə yüklərin daşınmasına imkan yaradır. Bu baxından, onun bu sahədə rəqabət qabiliyyəti yalnız müvafiq infrastrukturu formalaşdırdıqdan sonra artacaq.

Azərbaycan hazırda Orta dəhlizlə daha çox yüklərin daşınmasına nail olmaq üçün layihə iştirakçıları, xüsusilə də Çin, Gürcüstan və Qazaxıstanla aktiv işləyir.

Oktyabr ayında Azərbaycanla Qazaxıstan Xəzər dənizindəki "dar boğazı" aradan qaldırmaq üçün birgə müəssisə yaratmaq barədə qərar qəbul ediblər. **Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin dediyinə görə, bu, iki ölkə arasında daşıma xərclərini 1,5-2 dəfə aşağı salacaq. O qeyd edib ki, region ölkələri nəqliyyat marşrutlarının inkişafında investisiyaların səmərəliliyini təmin etmək üçün infrastruktur xərclərini daha sıx şəkildə əlaqələndirməlidir:** "Əsas diqqəti artıq investisiyadan çəkinməyə və infrastruktur xərclərimizin daha düzgün əlaqələndirilməsinə yönəltmişik. Qazaxıstan və Azərbaycan prezidentlərinin iştirakı ilə, Xəzər dənizində mövcud olan "dar boğaz" problemini həll etmək üçün Qazaxıstanla birgə müəssisə yaratmaq barədə razılığa gəldik. Bu layihə çərçivəsində super-bərə sistemləri istifadəyə veriləcək və bununla daşıma xərcləri təxminən 1,5-2 dəfə aşağı düşəcək".

**Onun sözlərinə görə, artıq marşrutun maliyyələşdirilməsinə yönəlmiş birgə müəssisə yaradılıb və bu təşəbbüs əsasən tariflərin tənzimlənməsi ilə bağlıdır:** "Hazırda üç tərəf arasında tariflər uyğunlaşdırılıb. Bütün bu addımlar bizim tərəfdaşlarımızın və müştərilərimizin maraqlarına xidmət edir. Əminəm ki, biz bu inamı qurduqca, nəqliyyat marşrutları daha səmərəli və rəqabətqabiliyyətli olacaq".

**Nazir vurğulayıb ki, Orta dəhliz layihəsinin məqsədi onu Şimal marşrutuna alternativ kimi deyil, Şərqlə Qərb arasında yüklərin daşınması üçün əsas və etibarlı seçimə çevirməkdir:** "Əsas məqsədimiz Orta dəhlizi elə formalaşdırmaqdır ki, o, Şimal marşrutuna sadəcə alternativ deyil, ilk seçim olsun. Çünki bu dəhliz region ölkələrinin bir-birindən asılılığını və qarşılıqlı maraqlarını daha aydın şəkildə göstərir. Artıq bütün tərəflər anlayıblar ki, bu, rəqabət deyil, qarşılıqlı asılılıq və əməkdaşlıq məsələsidir".

**R.Nəbiyevin fikrincə, Orta dəhlizdə marşrutların şaxələndirilməsi həm də müştərilər üçün əlavə etibar təmin edəcək:** "Əgər mən Çindən olan müştəriyəmsə və yüklərimin Avropaya hər hansı bir vaxta çatmasını təmin etmək istəyirəmsə, mənim müxtəlif alternativlərim olmalıdır - məsələn, KTG, Gürcüstan Dəmir Yolları və Azərbaycan Dəmir Yolları vasitəsilə. Bu baxımdan biz artıq başa düşdük ki, bu dəhlizlər, hətta Orta dəhliz daxilində belə, şaxələndirilməlidir, marşrutların uyğunluğu əhəmiyyətlidir və rəqabət düzgün istiqamətə yönəldilməlidir".

O bildirib ki, bu prinsipə əməl edildiyi halda, qısa müddət ərzində nəticələr görünəcək və Orta dəhliz həm etibarlı, həm də rəqabətqabiliyyətli bir tranzit marşrutuna çevriləcək.

Oktyabrın əvvəlində Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolu operatorları Orta dəhliz üzrə daşımalar üçün vahid uzunmüddətli tarifin tətbiqinə dair razılıq əldə ediblər. Tərəflər liman, dəmir yolu və logistika infrastrukturunun təkmilləşdirilməsi, mövcud darboğazların aradan qaldırılması, rəqəmsallaşdırmanın genişləndirilməsi və dəhlizin ötürücülük qabiliyyətinin artırılması üçün birgə addımlar atmağa razılaşıblar.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025

**Rəsmi statistikaya görə, Azərbaycana gələn turistlərin 80 faizindən çoxu yalnız Bakını seçir. Yəni ölkəyə gələn hər 100 turistdən cəmi 20-si Bakıdan kənara, bölgələrə üz tutur. Bu göstərici təkcə turizm baxımından yox, həm də regionların iqtisadi dinamizmi baxımından ciddi siqnaldır. Görünür, bölgələrdəki hotellər, turizm infrastrukturu, xidmət səviyyəsi və ümumi mühit paytaxtla rəqabət apara bilmir.**




# Əcnəbilərin rayonlardan "ayağını kəsən" səbəb

## Ekspert: "Regionlardakı hava limanları səmərəli fəaliyyət göstərə bilsə..."

Azərbaycanda turizmin ÜDM-də payı 3-4 faiz civarındadır. Müqayisə üçün, bu göstərici Türkiyədə 11-12, Gürcüstanda isə 7-8 faizdir. Yəni qonşu ölkələr turizmi real gəlir mənbəyinə çevirə biliblər. Azərbaycanda isə hələ ki turizmdən gələn qazancın əsas hissəsi daxili turizmin payına düşür. Bakı, Qəbələ, Quba, Naftalan kimi bölgələrdə hotellərin doluluq dərəcəsi əsasən yerli vətəndaşların hesabına təmin olunur. Xarici turistlər bu bölgələrə çox nadir hallarda yol salır.

Bunun bir neçə səbəbi var. Əvvəla, xidmət səviyyəsi ilə qiymət arasında ciddi uyğunsuzluq müşahidə olunur. Turistlərin əksəriyyəti bölgələrdəki hotellərin qiymətlərini Avropa standartlarında, xidmətlərini isə bəzən kənd qonaqlığı səviyyəsində dəyərləndirirlər. Xidmət personalının hazırlığı, təmizlik standartları, qida keyfiyyəti, turistlə davranış mədəniyyəti hələ də çox yerdə zəifdir. Turizmin əsas mahiyyəti yalnız "dağ havası satmaq" deyil, həm də "təcrübə və hiss yaşatmaqdır" - bu isə bölgələrdə demək olar ki, zəifdir.

Digər böyük problem əyləncə turizminin yoxluğudur. Azərbaycanda əcnəbi turistin bölgələrə gəlmək üçün motivasiyası olmalıdır. Onu Qəbələyə, Zaqatalaya və ya Lerikə nə gətirə bilər? Dağ, meşə, göl, təbiət? Bəli, bunlar mövcuddur. Amma turist təkcə təbiətə baxmaq istəmir, o, həm də yaşamaq, hiss etmək, əylənmək, yerli mədəniyyətlə ünsiyyət qurmaq istəyir. Rayonlarımızda isə bu cür mədəni və əyləncə infrastrukturuna az rast gəlinir.

Əlavə problem əlçatanlıq və logistikadır. Ölkədə yalnız Bakı və Naxçıvan aeroportları beynəlxalq səviyyədə fəaliyyət göstərir. Sürət qatarı isə bütün rayonlara getmir və bəlli məhdud qrafiklə hərəkət edir. Turist üçün asan çatmaq həm də səyahət planının əsas hissəsidir. Amma Azərbaycanda bir çox bölgəyə çatmaq hələ də vaxt və səbir tələb edir.

Digər tərəfdən, 2-3 ulduzlu, orta büdcəli hotellərin azlığı da bölgələrin turizm potensialını məhdudlaşdırır. Əksər rayonlarda ya bahalı, beşulduzlu hotellər, ya da turistlər üçün uyğun olmayan kiçik qonaq evləri var. Turizmin kütləviləşməsi üçün orta seqmentdə yerləşmə yerlərinin artması vacibdir. Yeni hotellərin tikintisinə isə çox zaman yerli icra strukturlarının bürokratik maneələri, torpaq ayrılması və icazə prosedurlarındakı ləngimələr əngəl yaradır.

Bu cür səbəblərə görə Azərbaycan turizmi hələ də paytaxt mərkəzli modeldə ilişib qalıb. Halbuki regionların təbiəti, iqlimi, mətbəxi və folkloru turizm üçün nadir resursdur. Onu yalnız "reklam" yox, doğru yanaşma və səmimi xidmət mədəniyyəti ilə reallaşdırmaq mümkündür. Əgər bu tendensiya dəyişməsə, ölkəmizə gələn turistlər yenə də yalnız Bakı bulvarında gəzişəcək, "Qız qalası" önündə şəkil çəkdirib geri dönəcək.

**Turizm eksperti Ceyhun Aşurov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, şəhər həyatı və mövcud təkliflərə görə turistlər daha çox Bakını seçir**: "Turistlərin çoxu Bakıda daha səmərəli zaman keçirə bilir. Turistlər, əlbəttə, rayonlara da gedirlər. Amma əsas faktor da var ki, hazırda quru sərhədlərin bağlı olma səbəbinə görə ölkəyə giriş və çıxış əsasən hava yolları ilə mümkün olur. Nəzərə alaq ki, uçuşların 90 faizindən çoxu Bakıdakı hava limanı vasitəsilə baş tutur. Bir turist Azərbaycana gələrkən onun giriş və çıxış nöqtəsi Bakı şəhəri olur. Bu halda ölkəyə gələn turist 5 günlük səfər edirsə, onun ilk bir-iki gününü Bakıda keçirir, hətta rayona getsə belə, 1 gün qalıb yenidən paytaxta dönür ki, uçuşu maneəsiz olsun. Nəticə etibarı ilə onun Bakı ilə bağlılığı daha çox olur. Ölkəyə giriş-çıxış edərkən Bakıda olmaq məcburiyyəti yaranmış olur. Quru sərhədləri açıq olduqda isə rayonları gəzə və sonra da Gürcüstan vasitəsi ilə ölkəni tərk edə bilirdilər. Bizim Bakıdan başqa 8 hava limanımız var. Məsələn, Gəncədə, Lənkəranda belə hava limanları var idi. Regionlardakı hava limanları səmərəli fəaliyyət göstərə bilsə, həmin bölgələr və onlara yaxın rayonlara turist axını ola bilər. Digər səbəblər isə paytaxtda infrastruktur mövcudluğu və hotellərin çoxluğudur".

**Turizm eksperti Rəhman Quliyev qeyd edib ki, turistlərin gəlişi payız və yaz mövsümü istisna olmaqla, qışda və yayda qeyri-bərabər paylanır. Onun sözlərinə görə, turistlərin səyahət trayektoriyası ölkədən asılı olur:** "Məsələn, ərəb və digər isti ölkələrdən gələn turistlər daha çox havası soyuq olan, dağlıq rayonlara getməyi sevirlər. Avropadan gələn turistlər isə tarixi yerləri gəzməyi xoşlayırlar. Məsələn, Bakıya, Şəkiyə, Gəncəyə gedirlər. Koreya və Yaponiya vətəndaşlarını da buraya şamil etmək olar. Payız fəsli isə turizm üçün qeyri-sezon hesab olunur. Bu mövsümdə daha çox işgüzar səfərlər olur. Beynəlxalq tədbirlər isə daha çox paytaxtda keçirilir. Regionlardan Şuşada və Qəbələdə belə tədbirlər olur. Həmçinin ölkəmizə oxumağa gələn əcnəbilər də paytaxtda təhsil alırlar. Bütün bunları nəzərə alsaq, görərik ki, sadaladığımız səbəblərə görə Azərbaycana gələnlər payız fəslində xüsusən Bakıda qalmağa üstünlük verirlər".

Qeyd edək ki, bu ilin ilk 9 ayında turistlərin ikinci ən çox üstünlük verdiyi rayon Qusar olub. Azərbaycana gələnlərin 6,4 faizi sözügedən rayonda qalıblar. Bütövlükdə, turistlərin 4,2 faizi Naftalanda, 3,4 faizi Qəbələdə, 2,4 faizi Qubada, 0,6 faizi Şamaxıda, 2,4 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalara üstünlük veriblər.

Bu müddətdə turistlərin keçirdiyi gecələmələrin sayı 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 9,3 faiz artaraq 1 milyon 937 min olub. Gecələmələrin ümumi sayının 14,1 faizi Hindistan, 10,9 faizi Rusiya, 9,1 faizi Səudiyyə Ərəbistanı, 8,7 faizi Türkiyə, 4,9 faizi Birləşmiş Ərəb Əmirlikləri, 4,6 faizi İsrail, 3,6 faizi Pakistan, 3,5 faizi ABŞ, 3,5 faizi Çin, 3,2 faizi Özbəkistan, 2,8 faizi Qazaxıstan, 2,8 faizi Küveyt, 2,3 faizi Böyük Britaniya, 1,2 faizi Almaniya, 1,0 faizi İtaliya, 0,8 faizi Gürcüstan, 0,6 faizi İran, 0,6 faizi Bəhreyn, 0,6 faizi Ukrayna, 21,2 faizi isə digər ölkələrin vətəndaşlarının payına düşüb.

❑ **Sahanə RƏHİMLİ, "Yeni Müsavat"**

## Rayonlara onlayn bilet satışı 44 faiz artıb

**Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda şəhərlərarası və rayonlararası müntəzəm avtobus marşrutlarına onlayn bilet satışını təmin edən "Biletim.az" portalı vasitəsilə onlayn qaydada 654 278 bilet əldə edilib.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) xəbər verib.

Məlumata əsasən, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 43,6% çoxdur. 2024-cü ilin 10 ayı ərzində qabaqcadan satış üzrə biletlərin xüsusi çəkisi 22% idisə, cari ilin müvafiq dövründə bu rəqəm 33%-ə yüksəlib.

Qeyd edilib ki, bu artım sərnişinlərin avtovağzal xidmətlərinə etimadının artdığını və səfərlərini planlaşdırarkən onlayn bilet alışı imkanlarından daha fəal şəkildə istifadə etdiklərini göstərir.

Xatırladaq ki, "Biletim.az" portalında 56 şəhər və rayona, 86 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 346 reys olmaqla 394 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

## Bakı bulvarının uzunluğu 25 kilometrə çatacaq

**Yaxın gələcəkdə bulvarın uzunluğunun 25 kilometrə çatdırılması nəzərdə tutulur.**

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Riad Qasımov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu layihələri birləşdirən əsas prinsip Bakının inkişafı ilə paralel olaraq onun tarixi ruhunun, ənənələrinin və yenilikçi xarakterinin qorunmasıdır: "Tarixi mərkəzlərin bərpasından müasir ictimai məkanların yaradılmasına qədər Bakı sistemli və ardıcıl şəkildə inkişaf etdirilərək yeni - daha yaşıl, rahat və tarazlı inkişaf edən şəhərə çevrilir". Report

## Azərbaycanda bu yol pullu olacaq

**"Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu birinci texniki dərəcələrə uyğun olaraq inşa edilir". Bunu Zəngilan rayonunun Ağbənd qəsəbəsinə mediatur zamanı jurnalistlərə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mütəxəssisi Ziyəddin Həsənov deyib.**

O bildirib ki, yolun ümumi uzunluğu 123,6 kilometrdir: "Bu yolun 78,5 kilometrlik hissəsi 6 hərəkət zolağından ibarətdir. 45,1 kilometrlik hissəsi isə 4 hərəkət zolağından ibarətdir. Hərəkət hissəsinin eni 14 və 21 metr, torpaq yatağının eni isə 21,5 və 29 metr təşkil edir. Avtomobil yolu üzərində 8 ədəd qovşaq inşa edilib. 44 ədəd alt, 5 ədəd üst keçid, 314 ədəd müxtəlif diametrli qurğu inşa edilib. Tunellərin ümumi uzunluğu 12 kilometr təşkil edir. 3 tunel var. Bununla yanaşı, layihə üzrə 24 körpünün tikintisi nəzərdə tutulub. Bu körpülərdən 23-nün tikinti işləri tamamlanıb. Bir körpüdə isə işlər davam edir".

"Avtomobil yolunun gələcəkdə ödənişli olması nəzərdə tutulur. Bu yola alternativ olaraq Horadiz-Cəbrayıl-Zəngilan yolu çəkilərək istismara verilib. Gələn ilin ikinci yarısında tikinti işlərinin yekunlaşdırılması planlaşdırılır", - deyə o əlavə edib.

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2024

# Özəlləşdirmə "çek"ləri yenə gündəmdə

## Postsovet ölkələrində məsələ çoxdan həllini tapıb; ekspertlərə görə, Azərbaycanda bu məsələnin həlli real görünmür

**1996-cı ildə mərhum prezident Heydər Əliyevin fərmanı ilə vətəndaşlara mülkiyyət sahibi olmaq üçün paylanmış qiymətli kağızlar 2011-ci ildən bu yana tədavüldə deyil. Əllərində qiymətli kağız olan vauçerləri qalmış yüzminlərlə vətəndaş tədavül müddətinin bitməsinin qanunsuz olduğunu, hüquqlarının bərpa olunmasını istəyir. Zaman-zaman özəlləşdirmə payları (çekləri) ilə bağlı müxtəlif sahələrin ekspertləri, hüquqşünaslar, deputatlar, ziyalılar hökumətə müraciətlər edirlər. Ancaq problem həllini tapmayıb. Təxminən 1 milyona yaxın insan bu çekləri dəyərləndirə bilməyib.**

**Deputat Elman Nəsirov** da Ayna.az-a deyib ki, özəlləşdirmə çekləri ilə bağlı problem qalmaqdadır. Onun sözlərinə görə, əvvəlki illərdə vətəndaşlardan oxşar müraciətlər edilib: "Xatirimdədir ki, vətəndaşların müraciəti ilə bağlı aidiyyəti orqanlara ünvanlanan müraciəti imzalayanlardan olmuşam. Təəssüf ki, hələlik özəlləşdirmə çekləri ilə bağlı hansısa qərar verilməyib. Görünür, ya məsələ araşdırılma mərhələsindədir, ya da hansısa çatışmazlıq var".

**Onun fikrincə, əlində çeki qalmış vətəndaşların bundan yararlana bilməsi lazımdır**: "Bu məsələnin hansısa formada həlli vacibdir. Aidiyyəti dövlət orqanları araşdırma aparmalı, yekun qərar verməlidir. İndi Milli Məclisdə gələn ilin dövlət büdcəsi ilə bağlı müzakirələr gedir. Komitə müzakirəsi zamanı fürsət düşərsə, vətəndaşların müraciətini aidiyyəti hökumət nümayəndələrinin diqqətinə çatdıracağam".

Deputat Aydın Hüseynov da bildirib ki, çeklərindən istifadə etməyən vətəndaşların haqqı tanınmalıdır. Onun həmkarı Elman Məmmədov da qeyd edib ki, hökumət hüququ pozulan insanların hüquqlarının bərpasını təmin etməlidir. Deputat Tahir Rzayev isə qeyd edib ki, bu problemə birdəfəlik nöqtə qoyulması vacibdir: "Özəlləşdirmə çeklərinin dövriyyəyə buraxılması vətəndaşların mülkiyyət hüququna sahib olmasına imkan yaradırdı. Təbii ki, zamanında çeklərindən faydalanan insanlar oldu. Əksəriyyət isə özəlləşdirmə çeklərini "qara bazar"da satdı və bu çekləri alan şəxslər qiymətləndirmə əsasında müəyyən sexləri, zavodları özəlləşdirdilər".

Bu çeklər həllini tapsa, onun qiymətləndirməsi necə olacaq? Axı üzərindən illər keçib, manatın dəyərində dəyişikliklər olub, o zaman bir çekin məbləği nə qədər hesablana bilər?

Hüquqşünaslara görə, özəlləşdirmə çekləri dövlət tərəfindən verilmiş mülkiyyət sənədi hesab olunur və konstitusiyanın 29-cu maddəsinə əsasən, vətəndaşın mülkiyyət hüququ dövlət tərəfindən qorunmalıdır. Çeklərin dövriyyədən çıxarılması zamanı hər hansı kompensasiya və ya əvəz mexanizminin təqdim edilməməsi, hüquqşünasların fikrincə, mülkiyyət hüququnun pozulması kimi qiymətləndirilə bilər. Bu baxımdan, dövlətin məsuliyyəti yalnız iqtisadi deyil, həm də hüquqi və sosial xarakter daşıyır.

Əgər hökumət bu məsələni yenidən gündəmə gətirərsə, əsas sual çeklərin dəyərinin necə müəyyən ediləcəyi ilə bağlı olmalıdır. 1996-cı ildə bir özəlləşdirmə çeki təxminən 11 min köhnə manat, yəni 2,2 yeni manat nominal dəyərinə malik idi. O vaxtdan bəri manatın dəyəri dəyişib, inflyasiya və iqtisadi artım tempi də fərqlənib. Müxtəlif iqtisadi modellər əsasında aparılan təxmini hesablamalar göstərir ki, bu gün bir çeki 50-100 manat aralığında qiymətləndirmək olar. Beləliklə, bir vətəndaşın dörd çek üçün təxminən 200-400 manat dəyərində kompensasiya ala bilməsi mümkün görünür. Bu, rəsmi hesablamadan çox iqtisadi əsaslandırmaya söykənən qiymətləndirmədir və dövlət qərarı qəbul edilərsə, daha dəqiq inflyasiya indeksləri ilə hesablanmalıdır.




Dünya təcrübəsinə baxdıqda, postsovet ölkələrinin əksəriyyətində oxşar problemlər müxtəlif formalarda həll edilib. Çexiyada vətəndaşların çekləri səhmlərə çevrilib və onlar real mülkiyyət payı əldə ediblər. Rusiyada çeklərin bir hissəsi qara bazarda satılsa da, sonradan dövlət müəyyən kompensasiya proqramları həyata keçirib. Gürcüstanda vaxtı keçmiş çeklər üçün kompensasiya mexanizmi yaradılıb, Baltik ölkələrində isə vauçerlər dövlət istiqrazlarına çevrilib. Bu ölkələrin təcrübəsi göstərir ki, əsas məqsəd vətəndaşın mülkiyyət hüququnu tanımaq və onun itkilərini müəyyən qədər kompensasiya etməkdir.

Mütəxəssislər Azərbaycan üçün bir neçə real həll variantı irəli sürür. Bunlardan biri çeklərə görə simvolik pul kompensasiyasının ödənilməsi, digəri isə dövlət müəssisələrində vətəndaşlara kiçik səhmdar paylarının verilməsi ola bilər. Həmçinin çeklərin dövlət istiqrazlarına çevrilməsi və ya sosial layihələrdə vətəndaş payı kimi istifadə edilməsi kimi alternativlər də təklif oluna bilər.

**İqtisadçı Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, özəlləşmə çekləri ilə bağlı hər hansı qərarın veriləcəyini düşünmür:** "Belə bir ehtimal çox aşağıdır. Çünki onların dövriyyədə olan müddəti çoxdan bitib. Onların dövriyyəyə yenidən qaytarılması mexanizminin Milli Məclis, ya Nazirlər Kabineti tərəfindən qərarın veriləcəyini, açığı, düşünmürəm. Düzdür, insanları narahat edən məsələdir, anlayıram. Amma onun həlli yolları ilə bağlı hökumət tərəfindən addım atılacağını da söyləmək çətindir".

**İqtisadçı Akif Nəsirli də mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Əlində çek olan insanların hissləri ilə oynamaq bəzi məmurların, deputatların mərəzinə çevrilib. 1996-cı ildə həmin çeklər buraxılanda müəyyən olunmuşdu ki, bu çeklər 3 il müddətində dövriyyədə olacaq. 3 olmadı, 5 il dövriyyədə oldu. Bu, uğursuz bir layihə kimi dəyərləndirildi. Keçmiş postsovet məkanında bu çeklərlə özəlləşdirilmə heç bir yerdə uğurlu olmadı. Ən uğurlu olanı Baltikyanı ölkələrdə oldu, orada da vətəndaşlar narazılıq edirdi. Yəni 2011-ci ilə qədər bu proses oldu və bitdi. Ona görə bu barədə mülahizələr yürütmək, hansısa izahatlar vermək artıqdır. Həmin insanlar üçün şərait yaradılmışdı. Qanunvericilikdə nəzərdə tutulmuşdu 3 il olsun, amma bu çeklər beş il dövriyyədə qaldı, dövriyyədə qaldıqca da öz dəyərini itirdi. Son vaxtlarda 3-5 manata həmin çeklər satılırdı. Bitmiş məsələni müzakirə etmək lüzumsuzdur".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Tamadalar üçün sosial sığorta haqqı artırılır

## Birdən artıq mobil telefonların qeydiyyatı üçün 100 manat rüsum alınacaq

**Gələn il yanvarın 1-dən fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslərin ödədiyi məcburi dövlət sosial sığorta haqları artırılır.**

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılan "Sosial sığorta haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Beləliklə, toy, şənlik və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət növləri, eləcə də fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət göstərən şəxslər üçün sosial sığorta haqqı minimum aylıq əməkhaqqının 5 faizindən 8 faizinə qaldırılır.




Çəkməçi, pinəçi, bərbər, dərzi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, nəqqaşlıq emalatxanalarının fəaliyyəti, həmçinin ev qulluqçuları, dayələr, fərdi sürücülər, bağbanlar, aşpazlar, gözətçilər, ofisiantlar və fərdi baytarlar üçün məcburi dövlət sosial sığorta haqqı minimum aylıq əməkhaqqının 3 faizindən 5 faizinə yüksəldilir.

Bu fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq sosial sığorta haqqının məbləğinə tətbiq edilən əmsallar isə hazırkı kimi qalacaq. Başqa sözlə, bu fiziki şəxslər üçün aylıq sosial sığorta haqqının məbləği əmsallar tətbiq edilməklə müəyyən olunur.

2026-cı il yanvarın 1-dək aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən olunacaq:

Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;

Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində - 1,5;

Digər şəhər və rayonlarda - 1,0.

Mobil telefonlar aksiz dərəcəsinə cəlb olunacaq, fiziki şəxslərin şəxsi istifadəsi üçün ölkəyə gətirilən 1 ədəddən artıq mobil cihazın qeydiyyatı üçün 100 manat dövlət rüsumu alınacaq.Bu isə Vergi Məcəlləsi və "Dövlət rüsumu haqqında" təklif edilən dəyişiklikdə əksini tapıb.

Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə görə, ölkəyə idxal edilən mobil cihazların hər bir ədədi üçün 20 manat aksiz vergisi tətbiq olunacaq. Fiziki şəxsin şəxsi istifadəsi üçün təqvim ili ərzində ölkəyə gətirilən 1 ədəd mobil cihaz aksizdən azad olunacaq.

"Dövlət rüsumu haqqında" Qanuna təklif edilən dəyişikliyə əsasən isə fiziki şəxslər tərəfindən bazar qiymətindən asılı olmayaraq təqvim ili ərzində ölkəyə gətirilən 1 ədəddən artıq mobil cihazın qeydiyyatı üçün 100 manat dövlət rüsum alınacaq.

Hər il üçün mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumunun məbləğləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək.

Sənədə əsasən, ictimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu məcəllənin 174.5-ci maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər gəlir (mənfəət) vergisindən azad ediləcək.

174.5-ci maddədə bildirilib ki, tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən tibbi xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyənin 50 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə onun vergi tutulan ümumi dövriyyəsindən çıxılır. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 203 (8813) 7 noyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda səsləndirdiyi fikirlər ölkəmizin gələcək iqtisadi inkişaf istiqamətləri baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının çıxışında diqqət çəkdiyi əsas məqamlar arasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı geoloji kəşfiyyat işləri xüsusi yer tutur. Prezidentin vurğuladığı kimi, bu ərazilərin təbii resurs potensialı hələ sovet dövründə lazımi səviyyədə öyrənilməmiş, müasir texnoloji imkanların məhdudluğu səbəbindən onların real iqtisadi dəyəri tam şəkildə müəyyən olunmayıb. Halbuki XXI əsrin müasir elmi-texnoloji şəraiti, peyk müşahidələri və uzaqdan zondlama üsulları bu regionların yer təkinin daha dərindən və dəqiq şəkildə tədqiq edilməsinə şərait yaradır.**

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin iqtisadi inkişafında geoloji tədqiqatların rolu yalnız təbii resursların aşkarlanması ilə məhdudlaşmır. Bu proses eyni zamanda ölkənin ümumi sənaye potensialının güclənməsinə, regionlarda yeni iş yerlərinin yaradılmasına, infrastrukturun yenilənməsinə və yerli əhalinin sosial rifahının yüksəlməsinə yönəlmiş kompleks dövlət siyasətinin tərkib hissəsidir. Prezidentin qeyd etdiyi kimi, azad edilmiş ərazilərdə aparılan bu işlər gələcəkdə Azərbaycanın iqtisadi xəritəsində tamamilə yeni sənaye mərkəzlərinin formalaşmasına səbəb olacaq. Bu, həm də işğaldan azad olunmuş torpaqların bərpası və reabilitasiyası prosesində təbii resurslardan səmərəli istifadə modelinin qurulması baxımından strateji əhəmiyyət daşıyır.

# Qarabağda yerin altındakı milyonlar

## İşğaldan azad torpaqlarda çox ciddi təbii resurslar olması barədə ilkin məlumatlar əldə olunub







Qarabağ və Şərqi Zəngəzur əraziləri uzun illər işğal altında qaldığından bu bölgələrdə hər hansı sistemli geoloji araşdırma aparılmayıb, qeyri-qanuni şəkildə mənimsənilmişdir. İndi isə Azərbaycan dövləti bu ərazilərdə müasir texnologiyalar əsasında elmi əsaslı tədqiqat işlərinə start verərək, həm iqtisadi, həm də elmi baxımdan mühüm nəticələr əldə etməyi hədəfləyir. Ənənəvi qızıl, mis, gümüş və digər metal yataqlarının yenidən qiymətləndirilməsi ilə yanaşı, qeyri-ənənəvi enerji resurslarının və nadir torpaq elementlərinin aşkarlanması istiqamətində aparılan işlər ölkəmizin iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edəcək.

Bütün bunlar Prezidentin "azad edilmiş torpaqlar Azərbaycanın gələcəyidir" fikrinin praktiki təsdiqidir. Qarabağ və Şərqi Zəngəzurun bərpası təkcə infrastrukturun yenidən qurulması deyil, həm də yeni iqtisadi-sənaye həyatının əsasının qoyulması deməkdir. Geoloji kəşfiyyat işləri bu prosesin başlanğıc mərhələsində həlledici rol oynayır, çünki təbii sərvətlərin dəqiq müəyyənləşdirilməsi gələcəkdə investisiya cəlbi, istehsal müəssisələrinin qurulması və yerli əmək bazarının formalaşması üçün elmi baza yaradır.

Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər yalnız elmi və texnoloji məsələlərə deyil, həm də milli iqtisadi strategiyanın yeni mərhələsinə işarə edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan geoloji tədqiqatlar Azərbaycanın iqtisadi suverenliyinin möhkəmlənməsi, regional inkişafın sürətlənməsi və bərpa olunmuş ərazilərin dayanıqlı sosial-iqtisadi model əsasında inkişafı üçün mühüm təməl rolunu oynayır.

**Sabiq maliyyə naziri Fikrət Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bildirib:** "Qarabağ və Şərqi Zəngəzur torpaqlarımız təbiəti ehtiyatlarla zəngindir. Lakin bu torpaqlarda erməni separatçılarının otuz illik işğalı dövründə Azərbaycan heç bir geoloji kəşfiyyat işləri apara bilməmişdi. Erməni separatçıları otuz ildə bu torpaqlarda təbii resursları vəhşicəsinə istismar etmiş və regionun ekologiyasına ciddi ziyan vurmuşdular. İnsan heç vaxt öz torpağında belə vəhşilik törətməz. Ermənilərin bu cür vəhşiliyin kökündə dayanan əsas isə bu idi ki, onlar bu torpaqların sahibi deyildilər. Biz indi, torpaqlarımızın işğaldan azad edilməsindən sonra, müstəqil dövlət kimi orada ən müasir texnologiyalardan istifadə etməklə geoloji kəşfiyyat işləri aparmağa başlamışıq. Heç şübhə etmirəm ki, aparılan tədqiqatlar bu torpaqların təbii sərvətlərlə nə qədər zəngin olduğunu aşkara çıxaracaq. Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyindəki çıxışında "hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək" deməsi, bizə əsas verir ki, o torpaqlarda çox ciddi təbii resurslar barədə artıq ilkin məlumatlar əldə olunub. Təbii ki, aşkar ediləcək təbii resurslar Azərbaycan iqtisadiyyatına yeni töhfələr verəcək, işğaldan azad olunmuş torpaqlarımızda iqtisadiyyat yüksələn xətlə inkişaf edəcək və ən əsası isə yenicə məskunlaşdırmağa başladığımız bu torpaqlarımızda çoxsaylı iş yerləri açılacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Azərbaycana "SSRİ müharibəsindən" serial çəkmək təklifi

## Bakıdan reaksiya: "İkinci Dünya müharibəsini təkcə Rusiya xalqının adına bağlamaq..."

**MDB ölkələri keçmiş sovet respublikalarının İkinci Dünya müharibəsində qələbəyə töhfələrindən bəhs edən "İskra" ("Qığılcım") adlı birgə serial çəkəcəklər. Bu layihə həftənin sonunda Moskvada "Rusiya və MDB xalqları" beynəlxalq film festivalı çərçivəsində keçirilən kinoforumun plenar iclasında müzakirə olunacaq.**



Səkkiz hissəli serial layihəsi - Böyük Vətən müharibəsi (İkinci Dünya müharibəsi) dövründəki birgə mübarizəsini ekranlaşdırmağı nəzərdə tutur. Layihə çərçivəsində real bir diviziyanın döyüş yolu əsasında, onlarla millətdən ibarət heyətinin çiyin-çiyinə vuruşu dramatik şəkildə əks etdiriləcək.

"Kino xalqları birləşdirməyə qadir olan universal dildir. "İskra"nın yeni seriyası nəinki irimiqyaslı layihə olacaq, həm də ümumi tarixi yaddaşın və əbədi dəyərlərin - cəsarət, qəhrəmanlıq və Vətənə sədaqət kimi dəyərlərin qorunub saxlanmasına mühüm töhfə olacaq", - deyə Qazprom Media Holdinqin baş direktorunun müavini Boris Xançalyan bildirib.

Ssenari müəllifi Dmitri Marin isə layihədə tarixi dəqiqliyə xüsusi önəm veriləcəyini, istehsal prosesində mütəxəssislərdən ibarət tarixi məsləhətçi qrupunun cəlb olunacağını açıqlayıb.

Layihədə Azərbaycanın rolu da nəzərdən keçirilir. Bu təklif çərçivəsində azərbaycanlıların sovet dövründə İkinci Dünya müharibəsindəki iştirakının, qəhrəmanlığının və fəallığının ekranlaşdırılması üçün siyasi və mədəni baxımdan bir platforma formalaşa bilər. Bu, faktdır ki, Sovet İttifaqı çərçivəsində azərbaycanlılar çoxsaylı döyüş zonalarında və arxa cəbhədə aktiv fəaliyyət göstəriblər. Məsələn, Bakı nefti və onun qələbəyə töhfəsi çoxsaylı mənbələrdə qeyd edilir, lakin paytaxt Bakı hələ "Qəhrəman şəhər" statusu almayıb - bu isə azərbaycanlıların mədəni və tarixi şüurunda bəzi haqsızlıqlara işarə edir.

Bu kimi narazılıqlar göstərir ki, ekranlaşdırma zamanı "milli iştirak" və "ümumi sovet mühərriki" anlayışlarının balanslaşdırılması vacibdir. Əks halda, ideallaşdırılmış "böyük sovet birliyi" təsviri milli fərqlilik və müxtəlifliyə kölgə sala bilər.

Azərbaycan tərəfi üçün vacib məsələ odur ki, ekranlarda yalnız "sovet mifikası" formalaşmasın - eyni zamanda azərbaycanlıların özünəməxsus təcrübə və qəhrəmanlıq hekayələri də görünən olsun.

Layihənin bəyan edilən məqsədi - "sovet respublikalarının birgə müharibə səyləri"ni nümayiş etdirmək olsa da, ideoloji mesajları da gözardı etmək olmaz. Çünki ekran işi tarixi reallığı bərpa etməklə bərabər, SSRİ-ni bərpa etmək, yenidən birgə vətən yaratmaq funksiyası da daşıya bilər.

Azərbaycana çaşqınlıq gətirə biləcək sual isə budur: Serial istəyi ilə Rusiya tarixi həqiqətləri bərpa etmək istəyir, yoxsa "SSRİ-dən yeni vətən" yaratmaq niyyəti güdür?

**Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor Əli İsa Cabbarov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu cür serial və filmlər ideoloji məqsədə xidmət edir**: "Müstəqillik qazanmış respublikalara vaxtilə "bir vətənimiz olub", "Rusiya ətrafında birləşsək, qalib gələrik" fikrini aşılamaq niyyətini daşıyır. Rusiya heç vaxt bu ideologiyadan əl çəkməyib. Bu iş dövlət səviyyəsində daima aparılıb.

Rusiya Müdafiə Nazirliyinin kino departamentinin böyük bir studiyası var. Kino siyasəti Rusiya Prezident Administrasiyasının daima nəzarətindədir və müzakirə olunur. Şüurlu sürətdə müxtəlif istiqamətdə filmlər çəkilir. Məsələn, boşanmaların sayını azaltmaq, doğumları artırmaq və ya xarici siyasətlə bağlı müxtəlif istiqamətlərdə filmlər istehsal edirlər. Bu, administrasiya tərəfindən göstəriş kimi verilir və aidiyyəti şöbələr tapşırığı yerinə yetirir.

Rusiyada son dövrlərdə idman uğurları ilə bağlı filmlər çoxalıb. Bununla həm qalib xalq obrazını, həm də "sağlam həyat yaşayırıq" görüntüsünü yaradırlar. Daha sonra Ukrayna ilə müharibə haqqında filmlər çəkirlər. Rusiya Müdafiə Nazirliyinin studiyasından ideoloji silah kimi istifadə edilir.

ABŞ-də də eyni proseslər aparılır. Sadəcə olaraq, orada bu işi dövlət tərəfindən deyil, özəl bazar iqtisadiyyatı yolu ilə həyata keçirirlər. ABŞ-də Əfqanıstan və İraqa hücumlara bəraət vermək üçün terrorçu müsəlman obrazı yaradırdılar".

**Əli İsa Cabbarovun sözlərinə görə, SSRİ-nin hər hansısa formada bərpa olunması Rusiyanın ideoloji siyasətinin ana qayəsidir:** "Fikrimcə, Rusiya bu serialı çəkərkən Azərbaycanın müharibədəki rolunu kiçiltməyəcək. Əksinə, könlümüzü almaq üçün qərəzli yanaşmanı yerə qoyacaq. İkinci Dünya müharibəsindən sonra bir çox yerə "Qəhrəman şəhər" adı verilmədi. Özbəklərin arxa cəbhədə rolu çox idi, lakin onlara da lazimi qiymət verilmədi. Azərbaycanın rolu isə müharibədə müqayisə gəlməz dərəcədə çox idi. Dediyim kimi, serialda bizə qarşı qərəzli yanaşmanın olacağını düşünmürəm, amma bu da həqiqətdir ki, SSRİ-nin obrazını möhkəmləndirmək üçün belə seriallar çəkəcəklər".

**Xalq artisti Əbdül Mahmudov mövzu ilə bağlı qəzetə danışıb:** "Bu boyda bəşəri bir müharibəni təkcə Rusiya xalqının adına bağlamaq digər millətlərin milyonlarla verdiyi canlı itkiyə qarşı hörmətsizlikdir. Azərbaycanın neçə oğlu müharibəyə getdi qayıtmadı.

Hazırda isə SSRİ-nin bərpası ilə bağlı heç bir söhbət gedə bilməz. O, ittifaq deyildi, itin tifağı idi. O adla bu gün Azərbaycanda hansısa ittifaq ola bilməz. Rusiya Pyotrun imperiya siyasətini bu gün də davam etdirir. Lakin dünya da əvvəlki deyil. Türk xalqları artıq hər şeyi anlayıb və əl-ələ verərək imperiya siyasətinə qarşı çıxır. Amma bu da həqiqətdir ki, Rusiya imperiya siyasətindən heç vaxt əl çəkməyəcək. Bütün sahələrdə onu göstərməyə çalışacaq. İstər siyasi, istərsə də mədəni həyatda".

❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
Son səhifə
N 203 (8813) 7 noyabr 2025

## Bunları bilirsinizmi?

* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ılıq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.





## Gecə tualetə qalxmağın səbəbi budur

**Gecə tez-tez oyanıb tualetə getməyinizin səbəbini yaşlanma ilə əlaqələndirirsinizsə, bu sizi təəccübləndirə bilər. ABŞ-li həkim Dr. Mark Burhenne-yə görə, bu vəziyyət çox vaxt nəfəsalma problemləri ilə bağlıdır.**

"Ask the Dentist" layihəsinin yaradıcısı olan Dr. Burhenne bildirib ki, diş müayinəsinə gələn bir çox xəstəsi onun "gecə tualetə qalxırsınızmı" sualına təəccüblə cavab verir: "Onların çoxunda problem sidik kisəsi deyil, yatarkən düzgün nəfəs almamaları idi".

Həkimin sözlərinə görə, yuxu zamanı hava yolunun daralması və ya bağlanması bədəni daha çox güc sərf etməyə məcbur edir. Bu vaxt sinə boşluğunda mənfi təzyiq yaranır və ürək əzələsi gərilir.

Bu gərginlik nəticəsində orqanizm ANP (Atrial Natriüretik Peptid) adlı hormon ifraz edir. Hormon böyrəklərə "sodyumu və suyu xaric et" siqnalı göndərir. Normalda beyin gecələr ADH (Antidiüretik Hormon) istehsal edərək bədənin suyu saxlamasını və yuxunun bölünməməsini təmin edir. Lakin ANP hormonunun artması ADH-nin fəaliyyətini zəiflədir. Nəticədə bədən daha çox sidik ifraz edir və insanlar gecənin bir yarısında oyanmaq məcburiyyətində qalır.

Mütəxəssislər bildirirlər ki, bu hal tez-tez yaşanırsa, səbəbi yuxu zamanı nəfəsin dayanması (apne) kimi pozğunluqlar ola bilər və həkimə müraciət etmək vacibdir.

# Yaponiyada ordu ayılara görə səfərbər edildi



**Yaponiya hərbçiləri ayı ovuna kömək məqsədilə ölkənin şimal dağlıq ərazilərinə göndəriliblər. Oxu.Az "Reuters" agentliyinə istinadən xəbər verir ki, ordu qüvvələri sakinlərə qarşı çoxsaylı ayı hücumları ilə əlaqədar yerli hökumət orqanlarının müraciəti əsasında əraziyə çağırılıb. Yerli əhalidən bir neçə həftədir ki, sıx meşəliklərə getməmək və hava qaraldıqdan sonra evdən çıxmamaq xahiş olunur. Məlumata görə, ilin əvvəlindən bəri Yaponiyada insanlara qarşı 100-dən çox ayı hücumu qeydə alınıb, nəticədə 12 nəfər həyatını itirib.**

Əməliyyata Kazuno şəhərindən start verilib. Qeyd olunur ki, hadisələrin təxminən yarısı məhz Kazunonun yerləşdiyi bölgədə baş verib. Hərbçilərin vəzifəsi ayılara tələ qurmaqdan ibarət olacaq. Peşəkar ovçular isə vəhşi heyvanları zərərsizləşdirmək üçün silaha əl atacaqlar.

Bildirilir ki, Yaponiya hərbçiləri Kazunodan sonra Odate və Kitaakita şəhərlərinə də göndəriləcək. Əməliyyatların ayın sonuna qədər davam edəcəyi planlaşdırılır.

## Ürək özünü bərpa edə bilir



**Elm dünyasında ürək xəstəliklərinin müalicəsində böyük dönüş yarada biləcək mühüm kəşf edilib. Milli.Az xəbər verir ki, ABŞ-nin Nyu-York şəhərindəki Mount Sinai Icahn Tibb Məktəbinin alimləri insan ürəyinin müəyyən şərtlər altında özünü bərpa edə biləcəyini sübut ediblər.**

Araşdırmaya görə doğuşdan qısa müddət sonra fəaliyyəti dayanmış bir geni yenidən aktivləşdirməklə ürəyin yeni, sağlam hüceyrələr istehsal etməsi mümkündür. Mütəxəssislər bu genin Cyclin A2 (CCNA2) adlandırıldığını bildirirlər. Bu gen döl inkişafı dövründə ürək əzələsinin böyüməsində və hüceyrə bərpasında mühüm rol oynayır, lakin insan doğulduqdan az sonra fəaliyyətdən qalır.

Tədqiqat çərçivəsində alimlər 21, 41 və 55 yaşlı donorların ürək toxumasına zərərsiz virus vasitəsilə aktiv CCNA2 genini yeridiblər. "Regenerative Medicine" jurnalında dərc olunan nəticələrə görə, xüsusilə 41 və 55 yaşlı donorların hüceyrələrində yenidən bölünmə müşahidə olunub və bu hüceyrələr tam sağlam ürək hüceyrələri kimi davranıblar. Alimlər qeyd ediblər ki, genin aktivləşməsi hüceyrələri qısamüddətli "gəncləşmə" vəziyyətinə salır və bəzi böyümə genlərini yenidən işə salaraq ürəyin özünü bərpa etməsinə şərait yaradır.

## İdmanla bağlı bu mif aradan qaldırıldı

**Viktor Çanq adına Kardiologiya İnstitutunun (Avstraliya) tədqiqatçıları müəyyən ediblər ki, müntəzəm fiziki məşqlər ürəyi aşındırmır, əksinə, onun fəaliyyətini gücləndirir. Oxu.az xəbər verir ki, tədqiqatın nəticələri "JACC: Advances" jurnalında dərc olunub. Alimlərin sözlərinə görə, məşq zamanı ürək döyüntülərinin tez artmasının ürəyə zərər verdiyi barədə geniş yayılmış fikir doğru deyil. Əksinə, aktiv həyat tərzi keçirən insanların sakit vəziyyətdə ürək döyüntüsünün tezliyi idmanla məşğul olmayanlara nisbətən orta hesabla 10 faiz aşağı olur.**

Tədqiqat nəticəsində müəyyən edilib ki, idmanla məşğul olan insanların ürək döyüntüsü dəqiqədə təxminən 68, azhərəkətli şəxslərdə isə təxminən 76-ya bərabərdir. Beləliklə, məşq edən insanların ürəyi gün ərzində təxminən 11.5 min dəfə az vurur. Qeyd olunur ki, sağlam yetkin şəxslərdə sakit vəziyyətdə normal nəbz tezliyi dəqiqədə 60-100 arasında dəyişir. Sakit vəziyyətdə nəbzin aşağı olması yaxşı fiziki forma və uzunmüddətli sağlamlığın göstəricisidir.

## Çayınızı şirin içirsizsə, bu xəstəliyə yoluxa bilərsiz



**Çaya şirin qatmaq zərərsiz görünə bilər, amma uzun müddət istifadə olunduqda ciddi sağlamlıq problemlərinə səbəb olur.**

Milli.az xəbər verir ki, gün ərzində içilən bir neçə stəkan çaya atılan şəkər tozu və ya qənd fərqinə varmadan bədəni yüksək şəkər yükü ilə qarşı-qarşıya qoyur. Xüsusilə isti çayla qarışan şəkər ağızda turş mühit yaradır və diş minasına ciddi ziyan vurur.

Yeməkdən sonra içilən şəkərli çay isə diş səthində ərp yığılmasını sürətləndirir. Bu vəziyyət zamanla:

Diş çürüməsi
Diş ətinin zəifləməsi
Hətta diş itkisinə

qədər gedib çıxır. Üstəlik, isti çayın təsiri ilə şəkərin yaratdığı ziyan digər şirin içkilərlə müqayisədə daha tez ortaya çıxır.

Şəkərli çay qan şəkərini sürətlə qaldırır, sonra tez endirir. Bu isə halsızlıq, ani aclıq hissi və şirin yemək istəyinə səbəb olur.

Vaxt keçdikcə bədən insulinin təsirinə az reaksiya verir. Bu isə 2-ci tip şəkərli diabet riskini yüksəldir.

Həddindən artıq şəkər qəbul etmək müdafiə hüceyrələrinin fəaliyyətini azaldır, bədəni xəstəliklərə qarşı daha gücsüz edir.

## Fransa vətəndaşı pişiyinə görə ciddi ziyana düşdü



**Fransada ev pişiyi üzündən qonşular arasında qeyri-adi məhkəmə mübahisəsi yaranıb. Oxu.Az "Oddity Central" nəşrinə istinadən xəbər verir ki, Yero bölgəsindən olan 70 yaşlı qadın pişiyinin qonşunun mülkünə zərər vurduğuna görə 1 250 avro məbləğində cərimələnib. Məlumata görə, qonşunun şikayəti əsasında keçirilən məhkəmə zamanı ev heyvanının qonşunun evində pəncə izləri buraxması, evi və bağı çirkləndirməsi sübut kimi təqdim olunub. Məhkəmə, həmçinin pişiyin qonşunun əmlakına yenidən zərər vuracağı təqdirdə əlavə cərimələrin tətbiq olunacağı barədə xəbərdarlıq edib. Lakin münaqişə bununla bitməyib. Məlum olub ki, Remi adlı pişik qadağaya baxmayaraq, yenidən qonşunun evinə daxil olub. Bu səbəbdən pişiyin sahibini əlavə olaraq 2 000 avro məbləğində cərimə gözləyir. Həmçinin pişik növbəti dəfə qonşunun həyətinə keçərsə, pişiyin sahibinə hər gün üçün 150 avro cərimə tətbiq olunacaq.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.